بسم الله الرحمن الرحيم

**Mərhəmətli, rəhmli Allahın adı ilə!**

# RƏŞİDİ XƏLİFƏLƏR

Uca Allah buyurur:

وَالسَّابِقُونَ الْأَوَّلُونَ مِنَ الْمُهَاجِرِينَ وَالْأَنْصَارِ وَالَّذِينَ اتَّبَعُوهُمْ بِإِحْسَانٍ
رَضِيَ اللَّهُ عَنْهُمْ وَرَضُوا عَنْهُ وَأَعَدَّ لَهُمْ جَنَّاتٍ تَجْرِي تَحْتَهَا الْأَنْهَارُ
خَالِدِينَ فِيهَا أَبَدًا ذَٰلِكَ الْفَوْزُ الْعَظِيمُ ﴿١٠٠﴾

«(İslamı) **ilk əvvəl qəbul edib** (başqalarını bu işdə) **qabaqlayan mühacirlərə və ənsarlara, həmçinin, yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəldikdə, Allah onlardan, onlar da Allahdan razıdırlar. Allah onlar üçün əbədi qalacaqları,** (ağacları) **altından çaylar axan cənnətlər hazırlamışdır. Bu, ən böyük qurtuluş və uğurdur!»**

*«ət-Tövbə» surəsi, 100-cü ayə»*

Məhəmməd peyğəmbər demişdir:

**«Mənim səhabələrimi söyməyin! Həqiqətən, sizdən biriniz Uhud dağı boyda qızıl sədəqə versə belə, onlardan birinin verdiyi bir ovuca (sədəqəyə) hətta yarısına belə çata bilməz»**

*«Səhihu-l-Buxari», 7/25, 3673-cü hədis.*

İmam Əli demişdir:

**«Peyğəmbərimizin səhabələrini söyməməyi sizə vəsiyyət edirəm. Onlar Peyğəmbərdən sonra dinə heç bir yenilik gətirməmişlər. Həqiqətən, Peyğəmbər də belə vəsiyyət etmişdir».**

*«Biharu-l-Ənvar», 22/305-306*

# MÜQƏDDİMƏ

Şükr və tərif Allaha məxsusdur, biz Ona şükr edir, Onu tərif edirik, Onu köməyə çağırırıq, Ondan bağışlanma diləyirik, nəfslərimizin şərindən və pis əməllərdən qorunmaq üçün Allaha sığınırıq. Allahın haqq yoluna yönəltdiyi şəxsi azdıran, azdırdığı şəxsi isə haqq yoluna yönəldən tapılmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, Onun şəriki yoxdur və şahidlik edirəm ki, Məhəmməd Onun qulu və elçisidir.

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللَّهَ حَقَّ تُقَاتِهِ وَلَا تَمُوتُنَّ إِلَّا وَأَنْتُمْ مُسْلِمُونَ ﴿١٠٢﴾

**«Ey iman gətirmiş kəslər! Allahdan lazımınca qorxun və yalnız müsəlman olduğunuz halda ölün!»**[1]

يَا أَيُّهَا النَّاسُ اتَّقُوا رَبَّكُمُ الَّذِي خَلَقَكُمْ مِنْ نَفْسٍ
وَاحِدَةٍ وَخَلَقَ مِنْهَا زَوْجَهَا وَبَثَّ مِنْهُمَا رِجَالًا كَثِيرًا وَنِسَاءً
وَاتَّقُوا اللَّهَ الَّذِي تَسَاءَلُونَ بِهِ وَالْأَرْحَامَ إِنَّ اللَّهَ كَانَ عَلَيْكُمْ
رَقِيبًا ﴿١﴾

**«Ey insanlar! Sizi tək bir şəxsdən** (Adəmdən) **xəlq edən, ondan zövcəsini** (Həvvanı) **yaradan və onlardan da bir çox kişi və qadınlar törədən Rəbbinizdən qorxun! Adı ilə bir-birinizdən** (cürbəcür şeylər) **istədiyiniz Allahdan, həmçinin qohumluq əlaqələrini kəsməkdən həzər edin! Şübhəsiz ki, Allah sizin üzərinizdə nəzarətçidir!»**[2]

---

[1] «Ali İmran» surəsi, 102.
[2] «ən-Nisa» surəsi, 1.

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللَّهَ وَقُولُوا قَوْلًا سَدِيدًا ﴿٧٠﴾ يُصْلِحْ لَكُمْ
أَعْمَالَكُمْ وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ ۗ وَمَن يُطِعِ اللَّهَ وَرَسُولَهُ فَقَدْ فَازَ فَوْزًا
عَظِيمًا ﴿٧١﴾

**«Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz söyləyin!** (Əgər belə etsəniz) **Allah əməllərinizi islah edər və günahlarınızı bağışlayar. Hər kəs Allaha və Onun elçisinə itaət etsə, böyük bir səadətə nail olar»**[3]

Müsəlman qardaş və bacılar!

Bu risaləni yazmaqda məqsədim budur ki, İslam xəlifələri barədə sizə qısa, ancaq imkan daxilində hərtərəfli məlumat verim və onların başqalarına nisbətdə olan üstünlüklərini aşkara çıxarım. Bunu etməklə də Allah üçün edilən ibadətdən sayılan islam əqidəsinin bir hissəsi olan onlara qarşı məhəbbəti bir az da artırım.

Ümumiyyətlə, xilafət 30 il olub.

Səfinənin (Allah ondan razı olsun! – radıyallahu anhu – r.a.) rəvayət etdiyi hədisdə Peyğəmbər (Ona və ailəsinə Allahın salavatı və salamı olsun! – səlləllahu əleyhi və alə alihi və səlləm – s.a.s.) demişdir: «Peyğəmbərlik (yəni sonrakı) xilafəti otuz il olacaq» (Əbu Davud, «Sünnə» kitabı, «Xəlifələr» fəsli, 12-ci cild, səh.259, 4633-cü hədis).

Bu hədisin səhih (mötəbər) olduğunu aşağıda adları çəkilən alimlər təsdiqləmişlər:

1. Əhməd bin Hənbəl; 2. İbn Əbdü-l-Bərr; 3. əl-Hakim; 4. ət-Tirmizi; 5. İbn Əbi Asim; 6. İbn Teymiyyə; 7. İbn Cərir ət-Təbəri; 8. İbn Hibbən; 9. əz-Zəhəbi; 10. İbn Hacər əl-Əsqaləni; 11. əl-Albani.

Bu məlumatın səhih olmasını isbat etmək üçün bax: «Səhih hədislər silsiləsi», 1-ci cild, səh.820-827, 459-cu hədisin şərhi.

Xilafətin müddəti:

**1**. Əbu Bəkr (r.a.) – 2 il 3 ay 10 gün;
**2.** Ömər (r.a.) – 10 il 6 ay 8 gün;
**3.** Osman (r.a.) – 11 il 11 ay 9 gün;

---

[3] «əl-Əhzab» surəsi, 70-71.

**4.** Əli (r.a.) – 4 il 9 ay 7 gün;
**5.** Həsən (r.a.) – 6 ay

Kitabda istifadə olunan ixtisarlar:
**s.ə.s.** – səlləllahu əleyhi və alə alihi və səlləm – Allahın salamı və xeyir-duası onun və ailəsinin üzərinə olsun!
**ə.s.** – əleyhissəlam – Allahın salamı onun üzərinə olsun!
**r.a.** – radıyallahu anhu (anhə) – Allah ondan razı olsun!

Allahdan istəyim budur ki, etdiyim bu əməli xeyirli əməllərdən etsin və bunun vasitəsilə müsəlmanların arasında sülh yaratsın. Həqiqətən, yalnız O, buna qadirdir!

# I XƏLİFƏ:

## ƏBU BƏKR ƏS-SİDDİQ (r.a.)

Adı: Abdullah ibn Osman
Atasının adı: Osman ibn Amir
Anasının adı: Səlmə bint Saxr
Künyəsi[4]: Əbu Bəkr
Ləqəbi: əs-Siddiq[5]
Anadan olduğu tarix və yer: Əbu Bəkr Peyğəmbərdən (s.a.s.) 2 il və bir neçə ay sonra (təxminən 572-ci il) Məkkə şəhərində anadan olmuşdur.

Məhəmmədə (s.a.s.) peyğəmbərlik verildiyi zaman o, Məkkə əhlini İslama dəvət etmiş və bu dəvəti kişilərdən qəbul edən ilk şəxs Əbu Bəkr olmuşdur. O, peyğəmbərin (s.a.s.) ən yaxın səhabələrindən, hicrət yoldaşı və cənnətlə müjdələnmiş on nəfərdən biridir. Bir çox döyüşlərdə iştirak etmiş, malı və canı ilə İslam dininə yardım etmişdir. Peyğəmbə-rin (s.a.s.) vəfatından sonra səhabələrin şurası tərəfindən seçilərək xilafətə gəlmiş və 2 il 3 ay xəlifə olmuşdur. Xilafət zamanı İslam dininə fayda verən bir çox xeyirli işlər görmüşdür:

1) Peyğəmbər (s.a.s.) Şamın şərqini fəth etmək üçün ordu hazırlayır və Usamə bin Zeydi (r.a.) bu orduya başçı təyin edir. Qoşun Mədinədən çıxmazdan əvvəl Peyğəmbər (s.a.s.) vəfat edir. Bir çox səhabələr bu ordunu Üsamənin (çox gənc, 17 yaşında olduğundan) başçılığı ilə göndərilməsinə etirazını bildirirlər. Lakin Əbu Bəkr (r.a.) Peyğəmbərin (s.a.s.) əmrini yerinə yetirərək, qoşuna məhz Üsamənin başçılığı ilə Şama getməyi əmr edir. Beləliklə, bu qoşun öhdəsinə düşəni yerinə yetirərək Şamı fəth edir.

2) Peyğəmbərin (s.a.s.) vəfatından sonra mürtəd olanlara (dindən çıxanlara) qarşı vuruşur və onları məğlub edir. Bununla müsəlman ümmətini parçalanmaq təhlükəsindən qurtarır.

3) Yəmamə döyüşündə bir çox qarinin (Quran hafizi) şəhid olduğunu görən Əbu Bəkr (r.a.) Zeyd bin Sabitə (r.a.) xurma lifləri üzərində yazılmış

---

[4] Ad və ləqəbdən başqa hər hansı bir şəxsə verilən xüsusi əlamət.
[5] Peyğəmbər (s.a.s.) bu ləqəbi Əbu Bəkrə (r.a.) isra və Merac səfərini təsdiqlədiyi üçün vermişdir.

Quran ayələrini cəm etməyi tapşırır. Zeyd bin Sabit (r.a.) onun əmri ilə Quranı cəm edir (ayrı-ayrı mənbələrdən bir yerə toplayır).

Əbu Bəkrin (r.a.) zövcələri və övladları[6]:

1. Quteylə bint Abdu-l-uzzə. Övladları: Abdullah, Əsmə.
2. Ummu Rumən bint Amir. Övladları: Əbdürrəhman, Aişə.
3. Əsmə bint Umeys. Övladı: Məhəmməd.
4. Həbibə bint Xaricə. Övladı: Ummu Kulsum.

Vəfat etdiyi tarix: hicrətin 13-cü ili, cumədəl-axər ayının 21-i (və ya 22-i) vəfat etmişdir.

### Əbu Bəkrin (r.a.) fəzilətinə dair ayə və hədislər:

1) Uca Allah buyurur:

إِلَّا تَنصُرُوهُ فَقَدْ نَصَرَهُ اللَّهُ إِذْ أَخْرَجَهُ الَّذِينَ كَفَرُوا ثَانِيَ اثْنَيْنِ إِذْ
هُمَا فِي الْغَارِ إِذْ يَقُولُ لِصَاحِبِهِ لَا تَحْزَنْ إِنَّ اللَّهَ مَعَنَا
فَأَنزَلَ اللَّهُ سَكِينَتَهُ عَلَيْهِ وَأَيَّدَهُ بِجُنُودٍ لَّمْ تَرَوْهَا وَجَعَلَ كَلِمَةَ
الَّذِينَ كَفَرُوا السُّفْلَىٰ وَكَلِمَةُ اللَّهِ هِيَ الْعُلْيَا وَاللَّهُ عَزِيزٌ حَكِيمٌ ﴿٤٠﴾

«[Ey möminlər!] **Əgər siz Peyğəmbərə kömək etməsəniz, Allah ona kömək göstərmiş olar. Necə ki, kafirlər onu** [Məkkədən] **iki nəfərdən biri** [ikinin ikincisi] **olaraq çıxartdıqları, hər ikisi mağarada olduğu və öz dostuna** [Əbu Bəkrə]**: "Qəm yemə, Allah bizimlədir!" – dediyi zaman göstərmişdi. O vaxt Allah ona** [Peyğəmbərə və ya Əbu Bəkrə] **bir rahatlıq nazil etmiş, onu sizin görmədiyiniz** [mələklərdən ibarət] **əsgərlərlə müdafiə etmiş, kafirlərin sözünü alçaltmışdı. Yalnız Allahın sözü** [kəlmeyi-şəhadət] **ucadır. Allah yenilməz qüvvət və hikmət sahibidir»**[7]

---

[6] Bu tarixi məlumatları ibn Cərir ət-Təbəri «Tarixu-l-uməm va-l-muluk» kitabında qeyd etmişdir (3-cü cild, səh.425-426).

[7] «ət-Tövbə» surəsi, 40.

Bu ayədə zikr olunan Peyğəmbər (s.a.s.) dostunun Əbu Bəkr olmasında ibn Cərir ət-Tabəri[8], İbn Kəsir[9], əs-Suyuti[10], əl-Buxari[11], Müslim[12] və digər islam alimləri həmrəydirlər.

2) Uca Allah buyurur:

إِن تَتُوبَا إِلَى اللَّهِ فَقَدْ صَغَتْ قُلُوبُكُمَا وَإِن تَظَاهَرَا عَلَيْهِ فَإِنَّ اللَّهَ هُوَ
مَوْلَاهُ وَجِبْرِيلُ وَصَالِحُ الْمُؤْمِنِينَ وَالْمَلَائِكَةُ بَعْدَ ذَٰلِكَ ظَهِيرٌ ﴿٤﴾

**«Əgər Peyğəmbərə qarşı bir-birinizə kömək etsəniz,** (bilin ki) **Allah onun hamisi, Cəbrail, əməlisaleh möminlər və bunlardan sonra** (bütün) **mələklər də onun köməkçiləridir!»**[13]

İbn Abbas (r.a.) ibn Məsud (r.a.) İbn Ömər (r.a.) və s. səhabələr bu ayədəki əməlisaleh möminlərin Əbu Bəkr (r.a.) Ömər (r.a.) Osman (r.a.) Əli (r.a.) və s. olduqlarını təfsir etmişlər.[14]

3) Uca Allah buyurur:

وَالَّذِي جَاءَ بِالصِّدْقِ وَصَدَّقَ بِهِ أُولَٰئِكَ هُمُ الْمُتَّقُونَ ﴿٣٣﴾

**«Haqqı** (Quranı) **gətirən və onu təsdiq edənlər əsl müttəqilərdir»**[15]

Onu təsdiq edənlər Əbu Bəkr (r.a.) və başqa möminlərdir[16].

4) Uca Allah buyurur:

وَسَيُجَنَّبُهَا الْأَتْقَى ﴿١٧﴾ الَّذِي يُؤْتِي مَالَهُ يَتَزَكَّىٰ ﴿١٨﴾ وَمَا لِأَحَدٍ عِندَهُ
مِن نِّعْمَةٍ تُجْزَىٰ ﴿١٩﴾ إِلَّا ابْتِغَاءَ وَجْهِ رَبِّهِ الْأَعْلَىٰ ﴿٢٠﴾ وَلَسَوْفَ يَرْضَىٰ ﴿٢١﴾

---

[8] «Camiu-l-bəyan», 10/136.
[9] «Təfsir əl-Qurani-l-azim», 2/472.
[10] «Tarixu-l-xuləfə», səh.48.
[11] «Səhihu-l-Buxari», 7/11, 3653-cü hədis.
[12] «Səhih Müslim», 15/144, 6119-cu hədis.
[13] «ət-Təhrim» surəsi, 4.
[14] «Təfsir ibn Kəsir», 4/500.
[15] «əz-Zumər» surəsi, 33.
[16] Ət-Tabəri. «Camiu-l-bəyan», 3/24.

**«Allahdan qorxub pis əməllərdən çəkinən isə ondan** (atəşdən) **uzaqlaşdırılar. O kimsə ki, malını** (Allah yolunda) **verib** (günahlardan) **təmizlənər. O şəxsin boynunda heç kəsin bir minnəti yoxdur ki, onun əvəzi verilsin. O ancaq ən Uca olan Rəbbinin rizasını qazanmaq üçün belə edər. And olsun ki, o** (öz Rəbbinin cənnətdə ona verəcəyi nemətlərə görə) **razı olacaqdır»**[17]

Əksər təfsir alimlərinin rəyinə görə bu ayələr Əbu Bəkrə (r.a.) görə nazil olub və bütün möminlərə aid edilir[18].

5) Əbu Səid əl-Xudri (r.a.) rəvayət edir ki, «Peyğəmbər (s.a.s.) səhabələrə xitab edib dedi: "Həqiqətən, mənə ən yaxın yoldaş və mal-dövləti ilə ən çox qayğı göstərən Əbu Bəkrdir. Rəbbimdən qeyrisini sevmiş olsaydım, (ifrata varmaqla) Əbu Bəkri sevərdim. Lakin, o mənim müsəlman qardaşımdır. Elə isə, məscidə açılan Əbu Bəkrin qapısından başqa bütün qapıları bağlayın!"»[19]

6) Cubeyr bin Mut‘im (r.a.) rəvayət edir ki, «Peyğəmbər (s.a.s.) onun yanına gələn qadına qayıdıb, bir müddət sonra gəlməyini bildirir. Qadın: "Səni tapa bilməsəm necə?" – deyə soruşduqda, o (s.a.s.) dedi: "Məni tapmasan, Əbu Bəkrin yanına get!"»[20]

7) Əbu Hüreyrə (r.a.) rəvayət edir ki, «Peyğəmbərdən (s.a.s.) eşitdim, o dedi: "Hər kəs Allah üçün saleh əməl edərsə, cənnət qapılarından (cənnətə) dəvət olunar: namaz əhli namaz qapısından, cihad əhli cihad qapısından, sədəqə əhli sədəqə qapısından və oruc əhli Rəyyan adlı oruc qapısından cənnətə dəvət olunar". Bunu eşidən Əbu Bəkr (r.a.) dedi: "Ey Allahın elçisi! O qapıların hamısından dəvət olunan olacaqmı?" Allahın elçisi (s.a.s.): "Bəli, və mən istəyirəm ki, sən onlardan olasan, ey Əbu Bəkr!" – deyə cavab verdi»[21].

8) Aişə (r.a.) rəvayət edir ki, «Peyğəmbər (s.a.s.) vəfat etdikdə Əbu Bəkr (r.a.) Sunhda[22] idi. Ömər (r.a.) səhabələrə xitab edib dedi: "Allaha and olsun ki, Peyğəmbər (s.a.s.) ölməyib, Allah onu qaytaracaq. Bu vaxt Əbu

---

[17] «əl-Leyl» surəsi, 17-21.
[18] «Təfsir ibn Kəsir», 4/762.
[19] «Səhihu-l-Buxari», 7/15, 3654-cü hədis.
[20] «Səhihu-l-Buxari», 7/22, 3659-cu hədis.
[21] «Səhihu-l-Buxari», 7/23, 3666-cı hədis.
[22] Peyğəmbər məscidindən bir mil uzaqda yerləşən məntəqədir.

Bəkr (r.a.) gəldi, onun üzünü açıb öpdü və dedi: "Atam-anamsan sən[23], sağlığında da, öləndən sonra da səndən gözəl iy gəlir. Nəfsim əlində olan Allaha and olsun ki, O sənə ölümü iki dəfə daddırmaz". Sonra Ömərə (r.a.) oturmağı əmr etdi və üzünü səhabələrə tutub, Allahı həmd-səna etdikdən sonra dedi: "Kim Məhəmmədə ibadət edirdisə, bilsin ki, artıq o vəfat etmişdir. Kim Allaha ibadət edirsə, bilsin ki, Allah əbədi və ölməzdir.

إِنَّكَ مَيِّتٌ وَإِنَّهُم مَّيِّتُونَ ﴿٣٠﴾

"(Ya Peyğəmbər!) **Şübhəsiz ki, sən də öləcəksən, onlar da öləcəklər"**[24]

وَمَا مُحَمَّدٌ إِلَّا رَسُولٌ قَدْ خَلَتْ مِن قَبْلِهِ الرُّسُلُ ۚ أَفَإِن مَّاتَ أَوْ قُتِلَ انقَلَبْتُمْ
عَلَىٰ أَعْقَابِكُمْ ۚ وَمَن يَنقَلِبْ عَلَىٰ عَقِبَيْهِ فَلَن يَضُرَّ اللَّهَ شَيْئًا ۗ وَسَيَجْزِي
اللَّهُ الشَّاكِرِينَ ﴿١٤٤﴾

"**Məhəmməd ancaq bir elçidir. Ondan əvvəl də elçilər gəlib-getmişlər. Əgər o ölsə və ya öldürülsə, siz gerimi dönəcəksiniz? Halbuki, geri dönən şəxs Allaha heç bir zərər yetirməz. Lakin Allah şükr edənlərə mükafat verər"**[25].

Bu ayələri oxuduqdan sonra səhabələr ağladı».[26]

9) Urva ibnu-z-Zubeyr (r.a.) rəvayət edir ki, «Mən Abdullah ibn Amrdan (r.a.) müşriklərin Peyğəmbərə (s.a.s.) nə etdikləri barəsində soruşduqda, o dedi: "Peyğəmbər (s.a.s.) namaz qılarkən Uqbətu bin Əbi Muit gəlib dəsmalı onun boynuna sarıdı və boğmağa başladı. Bunu görən Əbu Bəkr gəlib onu kənara itələdi və Allahın bu kəlamını oxudu:

أَتَقْتُلُونَ رَجُلًا أَن يَقُولَ رَبِّيَ اللَّهُ وَقَدْ جَاءَكُم بِالْبَيِّنَاتِ مِن رَّبِّكُمْ

[23] Əbu Bəkr (r.a.) bunu ibadət mənasında yox, çox istədiyindən hörmət mənasında demişdir.
[24] «əz-Zumər» surəsi, 30.
[25] «Ali İmran» surəsi, 144.
[26] «Səhihu-l-Buxari», 7/23, 3667, 3668-ci hədislər.

**"Məgər siz bir adamı "Rəbbim Allahdır" – deməyinə görə öldürəcəksiniz?! Halbuki, o, Rəbbinizdən sizə açıq-aşkar möcüzələr gətirmişdir"[27]».**[28]

10) Əbu Musa əl-Əş‘ari (r.a.) rəvayət edir ki, «Bir dəfə Əbu Bəkr (r.a.) Peyğəmbərin (s.a.s.) yanına daxil olmaq üçün izn istədi. Mən bunu Peyğəmbərə (s.a.s.) çatdırdıqda, o dedi: "İzn ver, gəlsin və onu cənnətlə müjdələ!"…»[29]

11) İbn Abbas (r.a.) rəvayət edir ki, «Mən Ömər ibnu-l-Xəttabın (r.a.) vəfatından sonra, onun çarpayısının ətrafına toplaşıb dua edənlərin arasında dayanmışdım. Arxamda dayanan bir kişi dirsəyini çiynimə qoyub dedi: "Allah sənə rəhmət etsin! Allahdan istəyirəm ki, sən yoldaşlarınla (Məhəmməd (s.a.s.) və Əbu Bəkrlə (r.a.) bir yerdə olasan! Çünki mən çox vaxt Peyğəmbərin (s.a.s.) "Mən, Əbu Bəkr və Ömər filan yerdə idik. Mən, Əbu Bəkr və Ömər filan əməli etdik. Mən, Əbu Bəkr və Ömər filan yerə getdik" dediyini eşidirdim. Mən dönüb arxamda dayanan səhabənin kim olduğuna baxdım. Bu, Əli bin Əbu Talib (r.a.) idi»[30].

12) Əbu Səid əl-Xudri (r.a.) rəvayət edir ki, «Peyğəmbər (s.a.s.) demişdir: "Mənim səhabələrimi söyməyin! Həqiqətən, sizdən biriniz Uhud dağı boyda qızıl sədəqə versə belə, onlardan birinin verdiyi bir ovuca (sədəqəyə) hətta yarısına belə çata bilməz"»[31].

13) Əbu Hüreyrə (r.a.) rəvayət edir ki, «Peyğəmbər (s.a.s.) üzünü səhabələrə tutub soruşdu: "Hansı biriniz bu gün oruc tutub?" Əbu Bəkr (r.a.): "Mən" – deyə cavab verdi. Peyğəmbər (s.a.s.) yenə soruşdu: "Hansı biriniz bu gün cənazəni təqib edib?" Əbu Bəkr (r.a.): "Mən" – deyə cavab verdi. Peyğəmbər (s.a.s.) yenə soruşdu: "Hansı biriniz bu gün kasıbı yedizdirib?" Əbu Bəkr (r.a.): "Mən" – deyə cavab verdi. Peyğəmbər (s.a.s.) yenə soruşdu: "Hansı biriniz bu gün xəstəni ziyarət edib?" Əbu Bəkr (r.a.): "Mən" – deyə cavab verdi. Peyğəmbər (s.a.s.) dedi: "Bu dörd gözəl xisləti özündə cəm edən cənnətə daxil olar"»[32]

14) Əli (r.a.) iki şeyx – Əbu Bəkr (r.a.) və Ömər (r.a.) haqqında demişdir: «Müsəlmanların ən yaxşısı, Allaha və Onun elçisinə (s.a.s.) ən

---

[27] «Ğafir (əl-Mümin)» surəsi, 28.
[28] «Səhihu-l-Buxari», 7/26, 3678-ci hədis.
[29] «Səhihu-l-Buxari», 7/25, 3674-cü hədis.
[30] «Səhihu-l-Buxari», 7/26, 3677-ci hədis.
[31] «Səhihu-l-Buxari», 7/25, 3673-cü hədis.
[32] «Səhih Müslim», 15/151, 6132-ci hədis.

yaxını – xəlifə Siddiq və xəlifə Faruq olmuşlar. And içirəm ki, onların İslamda yerləri həqiqətən böyükdür. Onların yoluxduğu adam şiddətli islam xəstəliyinə tutular (yəni, onlardan ibrət götürənlər dinlərində daha möhkəm olardılar). Allah onlara rəhmət etsin və onları gördükləri ən yaxşı işlərə görə mükafatlandırsın»[33]

15) Əbu Cəfərdən bir nəfər qılıncın bəzədilməsi haqqında soruşduqda, o demişdir: «Olar, Əbu Bəkr əs-Siddiq öz qılıncını gümüşlə bəzəyərdi. Soruşan şəxs ona: "Sən də ona Siddiq deyirsən?" – dedikdə, İmam dərhal yerindən qalxıb demişdir: "Bəli, Siddiq deyirəm, bəli, Siddiq deyirəm. Kim ona Siddiq deməsə, Allah onun sözünü bu dünyada və axirətdə təsdiqləməz»[34]

16) Əli (r.a.) demişdir: «Əbu Bəkrə, Ömərə, Osmana beyət gətirmiş adamlar, onlara beyət gətirdikləri məsələdə mənə də beyət gətirmişlər. Onlarda qayda belə idi ki, orada iştirak edən adam özü istəyəni seçə bilməz, o zaman orada olmayan isə seçilmiş adamı rədd edə bilməzdi. Yalnız mühacirlərin və ənsarların şurası bir adam haqqında eyni fikirdə olub, onu imam adlandıranda, Allahın bu işə razılığı əlaməti sayılardı. Əgər bir nəfər tənə edərək və ya bidətlə onların işindən özünü kənara çəksəydi, onu fikrindən daşındırardılar. Etiraz etsəydi, möminlərin yolu ilə getmədiyi üçün ona qarşı üsyan edərdilər və Allah da ona layiq olduğunu verərdi».[35]

17) Əli ibnu-l-Hüseyn ibn Musa[36] «əş-Şafi» adlı kitabında qeyd edir ki, Əlidən (r.a.): «Vəsiyyət etmirsən?» – deyə soruşduqda, o demişdir: «Peyğəmbər (s.a.s.) kimi vəsiyyət edirəm, lakin, Allah insanlar üçün xeyir istəsə, Peyğəmbərdən (s.a.s.) sonra səhabələri xeyir üzərində cəm etdiyi kimi[37], onları da xeyir üzərində cəm edər».[38]

18) Kuleyni istinadla Cəfər əs-Sadiqdən rəvayət edir ki, bir qadın gəlib ondan: «Mən Əbu Bəkr və Ömərin xəlifəliyini qəbul edib, onları sevə bilərəmmi?» – deyə soruşduqda, o demişdir: «Bəli, qəbul edə bilərsən». Qadın: «Mən Rəbbimin hüzurunda olduğum zaman "Bunu sən mənə əmr etdin" – deyə Ona xəbər verə bilərəmmi?!» – deyə soruşduqda, Cəfər ona: "Bəli" – deyə cavab verdi[39].

19) Məclisi istinadla Cəfər əs-Sadiqdən, o da babalarından, onlar da Əlidən (r.a.) rəvayət etmişdir: «Peyğəmbərimizin (s.a.s.) səhabələrini

---

[33] Meysəm. «Şərh Nəhcu-l-Bəlağə», 1/31, Tehran çapı.
[34] Ərbili. «Kəşfu-l-ğümmə fi mərifəti-l-Əimmə», 2/147.
[35] «Nəhcu-l-Bəlağə», səh:366-367 (tərcümədə səh.298, Tehran çapı, 1995)
[36] Seyid əl-Mürtəza adı ilə məşhurlaşmış, «elmu-l-hudə» ləqəbi verilmiş alimdir.
[37] İmam Əli (r.a.) burada Əbu Bəkrin (r.a.) xilafətini nəzərdə tutur.
[38] «əş-Şafi» səh.171, Nəcəf çapı.
[39] «ər-Ravzə minə-l-Kəfi», 8/101, 238.

söyməməyi sizə vəsiyyət edirəm. Onlar Peyğəmbərdən (s.a.s.) sonra dinə heç bir yenilik gətirməmişlər. Həqiqətən, Peyğəmbər (s.a.s.) də belə vəsiyyət etmişdir».[40]

20) ət-Tabrisi əl-Baqirdən rəvayət edir ki, o demişdir: «Mən Əbu Bəkr (r.a.) və Ömərin (r.a.) fəzilətli səhabə olduqlarını inkar etmirəm, lakin, Əbu Bəkr (r.a.) Ömərdən (r.a.) əfzəldir».[41]

21) əl-Murtəza rəvayət edir ki, Cəfər bin Məhəmməd peyğəmbərin (s.a.s.) qəbrini ziyarət edərkən (onun yanında dəfn olunmuş) Əbu Bəkr (r.a.) və Ömərə (r.a.) də salam verərdi.[42]

22) Əli (r.a.) demişdir: «Mən Məhəmməd peyğəmbərin (s.a.s.) əshabını gördüm. İçinizdə onlara bənzər bir adam belə görmürəm. Onlar saçları dağılmış, toz-torpağa bulanmış bir halda sabahı açar, gecələrini namazla keçirərdilər. Kimi alnını torpağa sürtərdi, kimi üzünü, qiyaməti xatırlayanda köz kimi yanardılar. Alınları səcdə etməkdən keçinin dizlərinə dönmüş, qabıq bağlamışdı. Allahı yada salanda əzab qorxusundan, savab ümidindən göz yaşı tökərdilər. Hətta elə ağlayardılar ki, yaxaları islanar və yelin əsdirdiyi ağac kimi titrəyərdilər».[43]

23) Əlinin (r.a.) Əbu-Bəkrə (r.a.) qarşı olan hörmət və sevgisinə (Əbu-Bəkr (r.a.) xəlifə olduqdan sonra) Leyla bin Məsudan (Əlinin (r.a.) üçüncü arvadından) olan oğluna Əbu-Bəkr adını verməyi də dəlalət edir. (bax s.30)

[40] «Biharu-l-ənvar», 22/305, 306.
[41] «əl-İhticac», səh.230, Kərbəla çapı.
[42] «əş-Şafi», səh.238.
[43] «Nəhcu-l-Bəlağə», səh:143 (tərcümədə səh.257, Tehran çapı, 1995).

# II XƏLİFƏ:
# ÖMƏR İBNU-L-XƏTTAB (r.a.)

Adı: Ömər ibnu-l-Xəttab
Atasının adı: əl-Xəttab bin Nufeyl
Anasının adı: Həntəmə bint Haşim
Künyəsi: Əbu Həfs
Ləqəbi: əl-Faruq[44]
Anadan olduğu tarix: Fil ilindən[45] on üç il sonra (təxminən 583-cü il) Məkkə şəhərində anadan olmuşdur.

Ömərin (r.a.) İslam dininə və müsəlmanlara mənfi münasibət göstərdiyini görən Peyğəmbər (s.a.s.) Allaha dua edib deyir: «Allahım, İslamı iki Ömərdən biri (Amr bin Hişam və ya Ömər) ilə izzətləndir!»[46] Uca Allah Peyğəmbərin (s.a.s.) duasını qəbul edib, onu (Öməri) haqq yoluna yönəltdi.

Ömər (r.a.) Peyğəmbərin (s.a.s.) ən yaxın səhabələrindən və cənnətlə müjdələnmiş on nəfərdən biridir. Bir çox döyüşlərdə iştirak etmiş, malı və canı ilə İslam dininə yardım etmişdir. Əbu Bəkrin (r.a.) vəfatından sonra, onun (Əbu Bəkrin) vəsiyyəti və səhabələrin razılığı ilə xəlifə seçilmişdir. O, 10 il 6 ay xəlifə olmuş və İslam dininə fayda verən bir çox xeyirli işlər görmüşdür.

1. Hərbi təşkilat (indiki zəmanədə müdafiə nazirliyi) və maliyyə nazirliyini yaratmışdır;
2. Müsəlmanlar üçün hicri təqvimini seçmişdir;
3. Rabitə işlərini nizama salmışdır;
4. Fəth olunmuş ölkələri vilayətlərə bölmüş və hər vilayətə başçı təyin etmişdir;
5. Rum, Fars imperiyalarını, İraqı, Şamı, Misiri və s. yerləri fəth etmişdir;

Ömərin (r.a.) zövcələri və övladları[47]:
1. Zeynəb bint Məzun. Övladları: Abdullah, Əbdü-r-Rəhman, Həfsə.

---

[44] Haqqı batildən ayırdığına görə Peyğəmbər (s.a.s.) ona bu ləqəbi vermişdir.
[45] Peyğəmbərin (s.a.s.) anadan olduğu il.
[46] «Səhih ət-Tirmizi», 3/204, 2907-ci hədis.
[47] Bu tarixi məlumatları ibn Cərir ət-Təbəri «Tarixu-l-uməm va-l-muluk» kitabında (4-cü cild, səh.198-199) qeyd etmişdir.

2. Ummu Həkim bintu-l-Haris. Övladı: Fatimə.

3. Ümm Gülsüm bint Əli bin Əbu Talib (r.a.). Övladları: Zeyd, Ruqiyyə.

4. Cəmilə bint Sabit[48]. Övladı: Asim.

5. Muleykə bint Cərval[49]. Övladı: Ubeydullah.

6. Yəmənli Luheyyə. Övladı: Əbdü-r-Rəhman.

Vəfat etdiyi tarix: Hicri tarixi ilə 23-cü il, zi-l-hiccə ayının 23-də məcusi (atəşpərəst) Əbu Lu‘lu Firuz onu fəcr namazında 6 dəfə bıçaqla vurdu. O, üç gündən sonra zi-l-hiccə ayının 26-sı vəfat etdi.

## Ömərin (r.a.) fəzilətinə dair ayə və hədislər:

1) Uca Allah buyurur:

إِن تَتُوبَا إِلَى اللَّهِ فَقَدْ صَغَتْ قُلُوبُكُمَا وَإِن تَظَاهَرَا عَلَيْهِ فَإِنَّ اللَّهَ هُوَ
مَوْلَاهُ وَجِبْرِيلُ وَصَالِحُ الْمُؤْمِنِينَ وَالْمَلَائِكَةُ بَعْدَ ذَٰلِكَ ظَهِيرٌ ﴿٤﴾

**«Əgər Peyğəmbərə qarşı bir-birinizə kömək etsəniz,** (bilin ki) **Allah onun hamisi, Cəbrail, əməlisaleh möminlər və bunlardan sonra** (bütün) **mələklər də onun köməkçiləridir!»**[50]

İbn Abbas (r.a.) İbn Məsud (r.a.) İbn Ömər (r.a.) və başqaları bu ayədəki əməlisaleh möminlərin Əbu Bəkr (r.a.) Ömər (r.a.) Osman (r.a.) Əli (r.a.) və başqalarının olduqlarını təfsir etmişlər.[51]

2) Uca Allah buyurur:

وَسَيُجَنَّبُهَا الْأَتْقَى ﴿١٧﴾ الَّذِي يُؤْتِي مَالَهُ يَتَزَكَّىٰ ﴿١٨﴾ وَمَا لِأَحَدٍ عِندَهُ
مِن نِّعْمَةٍ تُجْزَىٰ ﴿١٩﴾ إِلَّا ابْتِغَاءَ وَجْهِ رَبِّهِ الْأَعْلَىٰ ﴿٢٠﴾ وَلَسَوْفَ يَرْضَىٰ ﴿٢١﴾

---

[48] Talaqla boşandığı zövcəsi.

[49] Talaqla boşandığı zövcəsi.

[50] «ət-Təhrim» surəsi, 4).

[51] «Təfsir İbn Kəsir», 4/500.

**«Allahdan qorxub pis əməllərdən çəkinən isə ondan** (atəşdən) **uzaqlaşdırılar. O kimsə ki, malını** (Allah yolunda) **verib** (günahlardan) **təmizlənər. O şəxsin boynunda heç kəsin bir minnəti yoxdur ki, onun əvəzi verilsin. O ancaq ən Uca olan Rəbbinin rizasını qazanmaq üçün belə edər. And olsun ki, o** (öz Rəbbinin cənnətdə ona verəcəyi nemətlərə görə) **razı olacaqdır»**[52]

Əksər təfsir alimlərinin rəyinə görə bu ayələr Əbu Bəkr (r.a.) üçün nazil olub və Ömər (r.a.) də daxil olmaqla bütün möminlərə şamil edilir.[53]

3) Uca Allah buyurur:

وَالَّذِي جَاءَ بِالصِّدْقِ وَصَدَّقَ بِهِ أُولَٰئِكَ هُمُ الْمُتَّقُونَ ﴿٣٣﴾

**«Haqqı** (Quranı) **gətirən və onu təsdiq edənlər əsl müttəqilərdir»**[54]

Onu təsdiq edənlər Əbu Bəkr (r.a.) Ömər (r.a.) və başqa möminlərdir.[55]

4) Sə‘d bin Əbi Vəqqas (r.a.) rəvayət edir ki, «Ömər ibnu-l-Xəttab (r.a.) izn alıb, Peyğəmbərin (s.a.s.) yanına daxil oldu. Peyğəmbərin (s.a.s.) yanında səslərini onun səsindən uca qaldırıb söhbət edən qadınlar Öməri (r.a.) gördükdə, dərhal hicablarını geyindilər[56]. Peyğəmbər (s.a.s.) bu halı görüb gülümsədi. Ömər (r.a.) ondan gülümsəməyinin səbəbini soruşduqda o dedi: "Bu qadınlara təəccüblənirəm ki, sənin səsini eşidən kimi hicablarını geyindilər". Ömər üzünü onlara tutub dedi: "Ey nəfslərinə düşmən olanlar! Allahın elçisindən (s.a.s.) qorxmursunuz, məndən qorxursunuz?" Onlar dedi: "Bəli, çünki sən sərt ürəklisən". Peyğəmbər (s.a.s.) ona dedi: "Ey Xəttabın oğlu! Nəfsim əlində Olana and olsun ki, şeytan sənə rast gəldiyi zaman yolunu dəyişdirib, başqa yol ilə gedir"»[57]

5) İbn Abbas (r.a.) rəvayət edir ki, «Mən Ömər ibnu-l-Xəttabın (r.a.) vəfatından sonra, onun çarpayısının ətrafına toplaşıb dua edənlərin arasında dayanmışdım. Arxamda dayanan bir kişi dirsəyini çiynimə qoyub dedi: "Allah sənə rəhmət etsin! Allahdan istəyirəm ki, sən yoldaşlarınla

---

[52] «əl-Leyl» surəsi, 17-21.
[53] «Təfsir İbn Kəsir», 4/762.
[54] «əz-Zumər» surəsi, 33.
[55] Ət-Tabəri, «Camiu-l-bəyan», 3/24.
[56] Bu (yəni qadınların Peyğəmbərin (s.a.s.) yanında hicabsız olmaqları) yalnız Peyğəmbərə (s.a.s.) xas olan haldır.
[57] «Səhihu-l-Buxari», 7/50, 7683-cü hədis.

(Məhəmməd (s.a.s.) və Əbu Bəkrlə (r.a.) bir yerdə olasan! Çünki mən çox vaxt Peyğəmbərin (s.a.s.) "Mən, Əbu Bəkr və Ömər filan yerdə idik. Mən, Əbu Bəkr və Ömər filan əməli etdik. Mən, Əbu Bəkr və Ömər filan yerə getdik" dediyini eşidirdim. Mən dönüb arxamda dayanan səhabənin kim olduğuna baxdım. Bu, Əli bin Əbu Talib (r.a.) idi»[58].

6) Əbu Musa əl-Əşari (r.a.) rəvayət edir ki, «Bir dəfə Ömər ibnu-l-Xəttab (r.a.) Peyğəmbərin (s.a.s.) yanına daxil olmaq üçün izn istədi. Mən bunu Peyğəmbərə (s.a.s.) çatdırdıqda, o dedi: "İzn ver, gəlsin və onu cənnətlə müjdələ!"…»[59]

7) Əbu Səid əl-Xudri (r.a.) rəvayət edir ki, «Peyğəmbər (s.a.s.) demişdir: "Mənim səhabələrimi söyməyin! Həqiqətən, sizdən biriniz Uhud dağı boyda qızıl sədəqə versə belə, onlardan birinin verdiyi bir ovuca (sədəqəyə) hətta yarısına belə çata bilməz"»[60].

8) Əbu Hüreyrə (r.a.) rəvayət edir ki, «Peyğəmbər (s.a.s.) demişdir: "Sizdən əvvəl yaşamış ümmətlərin içərisində zənlərində sadiq olan insanlar olub. Mənim ümmətimdə zənnində sadiq olan Ömərdir"»[61]

9) əl-Misvar bin Məxramə (r.a.) rəvayət edir ki, «Ömər (sübh namazını qıldığı zaman) bıçaqla vuruldu. Yarası ona ağrı verdikdə, İbn Abbas (r.a.) ona təsəlli verib dedi: "Ey möminlərin əmiri! Sən Peyğəmbər (s.a.s.) və Əbu Bəkrin (r.a.) fəzilətli səhabələrindən olmusan. Onlar vəfat etdikdə səndən razı idilər. Həmçinin sən bu camaatı onlar səndən razı olduqları halda tərk edirsən". Bu sözləri eşidən Ömər (r.a.) ona dedi: "Peyğəmbər (s.a.s.) və Əbu Bəkrin (s.a.s.) səhabəsi olmağım və onların məndən razı qalmalarını doğru deyirsən. Həqiqətən, bu Allahın mənə bəxş etdiyi fəzilətdir. İndi gördüyün narahatçılığım isə sizə görədir. Allaha and olsun ki, mənim yer dolusu qızılım olsaydı, onu Allahın əzabına düçar olmamaq üçün Onun yolunda sərf edərdim"»[62]

10) Ömər ibnu-l-Xəttab (r.a.) rəvayət etmişdir ki, «Mən üç ayədə – İbrahimin (ə.s) məqamı, hicab və Bədr əsirləri haqqında olan ayələrdə Rəbbimə müvafiq oldum».[63]

– Ömər (r.a.) Peyğəmbərə: «Ey Allahın elçisi! Bəlkə, İbrahimin (ə.s) durduğu yeri özümüzə namazgah edək?» – deyə təklif etdikdə, Uca Allah bu ayəni nazil etdi:

---

[58] «Səhihu-l-Buxari», 7/26, 3677-ci hədis.
[59] «Səhihu-l-Buxari», 7/25, 3674-cü hədis.
[60] «Səhihu-l-Buxari», 7/25, 3673-cü hədis.
[61] «Səhihu-l-Buxari», 7/25, 3689-cu hədis.
[62] «Səhihu-l-Buxari», 7/25, 3692-ci hədis.
[63] «Səhih Müslim», 15/162, 6156-cı hədis.

وَاتَّخِذُوا مِنْ مَقَامِ إِبْرَاهِيمَ مُصَلًّى

«[Ey mö‘minlər!] **İbrahimin durduğu yeri özünüzə namazgah edin!..»**.[64]

– Ömər (r.a.) Peyğəmbərə (s.a.s.): «Ey Allahın elçisi! Bəlkə, zövcələrinə hicab geyinməyi əmr edəsən?» – deyə təklif etdikdə, Allah təala bu ayəni nazil etdi:

وَإِذَا سَأَلْتُمُوهُنَّ مَتَاعًا فَاسْأَلُوهُنَّ مِنْ وَرَاءِ حِجَابٍ ۚ ذَٰلِكُمْ
أَطْهَرُ لِقُلُوبِكُمْ وَقُلُوبِهِنَّ ۚ

**«Onlardan** (Peyğəmbərin (s.a.s.) zövcələrindən) **bir şey soruşduqda,** (evlərinə daxil olmadan) **pərdə arxasından soruşun. Bu həm sizin, həm də onların ürəklərinə daha çox təmizlik bəxş edər»** [65]

– Ömər (r.a.) Peyğəmbərə (s.a.s.): «Ey Allahın elçisi! Onların (yəni əsirlərin) boynunu vur!» – deyə təklif etdikdə, Uca Allah bu ayələri nazil etdi:

مَا كَانَ لِنَبِيٍّ أَنْ يَكُونَ لَهُ أَسْرَىٰ حَتَّىٰ يُثْخِنَ فِي الْأَرْضِ ۚ تُرِيدُونَ عَرَضَ
الدُّنْيَا وَاللَّهُ يُرِيدُ الْآخِرَةَ ۗ وَاللَّهُ عَزِيزٌ حَكِيمٌ ﴿٦٧﴾ لَوْلَا كِتَابٌ مِنَ
اللَّهِ سَبَقَ لَمَسَّكُمْ فِيمَا أَخَذْتُمْ عَذَابٌ عَظِيمٌ ﴿٦٨﴾ فَكُلُوا مِمَّا غَنِمْتُمْ
حَلَالًا طَيِّبًا ۚ وَاتَّقُوا اللَّهَ ۚ إِنَّ اللَّهَ غَفُورٌ رَحِيمٌ ﴿٦٩﴾

**«Heç bir peyğəmbərə yer üzündə** (küfrün kökünü kəsmək üçün bacardığı qədər çox kafir) **öldürməyənə qədər əsirləri özünə mal etmək** (onları öldürməyib fidyə müqabilində azad etmək) **yaramaz.** [Ey möminlər!] **Siz** (fidyə almaqla) **puç dünya malını istəyirsiniz, Allah isə**

64 «əl-Bəqərə» surəsi, 125.
65 «əl-Əhzab» surəsi, 53.

(sizin) **axirəti qazanmağınızı istəyir. Allah yenilməz qüvvət və hikmət sahibidir. Əgər əvvəlcə** (bu barədə) **Allahdan bir hökm olmasaydı, aldığınız** (fidyə) **müqabilində sizə şiddətli bir əzab üz verərdi. Əldə etdiyiniz qənimətləri halal və təmiz olaraq yeyin, Allahdan qorxun! Həqiqətən, Allah bağışlayan və rəhm edəndir[66]»**[67]

**Qeyd:** Ömər ibnu-l-Xəttab (r.a.) bundan əlavə üç ayədə də Rəbbinə müvafiq olmuşdur:

– Ömər ibnu-l-Xəttab (r.a.): «Allahım, şərabın hökmünü bizə açıq-aydın bəyan et!» – deyə dua etdikdə, Uca Allah bu ayəni nazil etdi:

يَسْـَٔلُونَكَ عَنِ الْخَمْرِ وَالْمَيْسِرِ قُلْ فِيهِمَا إِثْمٌ كَبِيرٌ وَمَنَافِعُ لِلنَّاسِ
وَإِثْمُهُمَا أَكْبَرُ مِن نَّفْعِهِمَا

«[Ey Məhəmməd!] **Səndən içki və qumar** (meysir) **haqqında sual edənlərə söylə: "Onlarda həm böyük günah, həm də insanlar üçün mənfəət vardır. Lakin günahları mənfəətlərindən daha böyükdür"»[68]**

– Ömər (r.a.) yenə: «Allahım, şərabın hökmünü bizə açıq-aydın bəyan et!» – deyə dua etdikdə, Uca Allah bu ayəni nazil etdi:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تَقْرَبُوا الصَّلَاةَ وَأَنتُمْ سُكَارَىٰ حَتَّىٰ تَعْلَمُوا مَا
تَقُولُونَ وَلَا جُنُبًا إِلَّا عَابِرِي سَبِيلٍ حَتَّىٰ تَغْتَسِلُوا

**«Ey iman gətirənlər! Sərxoş ikən nə dediyinizi anlamayana qədər, cünub olduğunuz halda qüsl edənədək namaza** (namaz qılınan yerə) **yaxınlaşmayın!»**[69]

---

[66] «əl-Ənfal» surəsi, 67-69.
[67] «Səhihu-l-Buxari» - də bu üç hadisə 1/601, 402-ci hədisdə qeyd olunmuşdur.
[68] «əl-Bəqərə» surəsi, 219.

– Ömər (r.a.) bir daha: «Allahım, şərabın hökmünü bizə açıq-aydın bəyan et!» – deyə dua etdikdə, Uca Allah bu ayələri nazil etdi:

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا إِنَّمَا الْخَمْرُ وَالْمَيْسِرُ وَالْأَنْصَابُ وَالْأَزْلَامُ
رِجْسٌ مِنْ عَمَلِ الشَّيْطَانِ فَاجْتَنِبُوهُ لَعَلَّكُمْ تُفْلِحُونَ
﴿٩٠﴾ إِنَّمَا يُرِيدُ الشَّيْطَانُ أَنْ يُوقِعَ بَيْنَكُمُ الْعَدَاوَةَ
وَالْبَغْضَاءَ فِي الْخَمْرِ وَالْمَيْسِرِ وَيَصُدَّكُمْ عَنْ ذِكْرِ اللَّهِ وَعَنِ الصَّلَاةِ
فَهَلْ أَنْتُمْ مُنْتَهُونَ ﴿٩١﴾

**«Ey iman gətirənlər! Şərab** (içki) **da, qumar da, bütlər də, fal oxları da şeytanın əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız! Şübhəsiz ki, şeytan içki və qumarla aranıza ədavət və kin salmaq, sizi Allahı yada salmaqdan və namaz qılmaqdan ayırmaq istər. Artıq bu işə son qoyacaqsınızmı?»**[70]

Bunu eşidən Ömər (r.a.): «Son qoyduq, son qoyduq» – deyə təkrar etdi.[71]

– Ömər (r.a.) Peyğəmbərin (s.a.s.) zövcələrinin ona qarşı (həddi aşdıqlarını) görüb, onlara nəsihət etdikdə, Uca Allah bu ayəni nazil etdi:

عَسَىٰ رَبُّهُ إِنْ طَلَّقَكُنَّ أَنْ يُبْدِلَهُ أَزْوَاجًا خَيْرًا مِنْكُنَّ مُسْلِمَاتٍ مُؤْمِنَاتٍ
قَانِتَاتٍ تَائِبَاتٍ عَابِدَاتٍ سَائِحَاتٍ ثَيِّبَاتٍ وَأَبْكَارًا ﴿٥﴾

**«Əgər o** (Məhəmməd) **sizi boşasa, ola bilsin ki, Rəbbi sizin əvəzinizə ona sizdən daha yaxşı zövcələr – müsəlman, mömin, itaətkar, tövbə edən, ibadət edən, oruc tutan dul qadınlar və bakirə qızlar versin**[72]**»**[73]

---

[69] «ən-Nisa» surəsi, 43.
[70] «əl-Maidə» surəsi, 90-91.
[71] Əbu Davudun «əs-Sünən»i, 10/76, 3665-ci hədis; «Səhih Əbu Davudun sünnəsi», 2/699, 3117-ci hədis.
[72] «ət-Təhrim» surəsi, 5.

– Ömər (r.a.) Peyğəmbərə (s.a.s.) münafiqlər üçün namaz (cənazə namazını) qılmamağı təklif etdikdə, Uca Allah bu ayəni nazil etdi:

وَلَا تُصَلِّ عَلَىٰٓ أَحَدٍ مِّنْهُم مَّاتَ أَبَدًا وَلَا تَقُمْ عَلَىٰ قَبْرِهِۦٓ ۖ إِنَّهُمْ كَفَرُوا۟ بِٱللَّهِ
وَرَسُولِهِۦ وَمَاتُوا۟ وَهُمْ فَٰسِقُونَ ﴿٨٤﴾

**«Münafiqlərdən ölən heç bir kəsin namazını heç vaxt qılma, qəbrinin başında durma. Çünki onlar Allahı, Onun elçisini dandılar və fasiq olaraq öldülər!»**[74]

11) Əli (r.a.) iki şeyx – Əbu Bəkr (r.a.) və Ömər (r.a.) haqqında demişdir: «Müsəlmanların ən yaxşısı, Allaha və Onun elçisinə (s.a.s.) ən yaxını – xəlifə Siddiq və xəlifə Faruq olmuşlar. And içirəm ki, onların İslamda yerləri həqiqətən böyükdür. Onların yoluxduğu adam şiddətli islam xəstəliyinə tutular (Yəni onlardan ibrət götürənlər dinlərində daha möhkəm olardılar). Allah onlara rəhmət etsin və onları gördükləri ən yaxşı işlərə görə mükafatlandırsın»[75]

12) Əli (r.a.) demişdir: «Əbu Bəkrə, Ömərə, Osmana beyət gətirmiş adamlar onlara beyət gətirdikləri məsələdə mənə də beyət gətirmişlər. Onlarda qayda belə idi ki, orada iştirak edən adam özü istəyəni seçə bilməz, o zaman orada olmayan isə seçilmiş adamı rədd edə bilməzdi. Yalnız mühacirlərin və ənsarların şurası bir adam haqqında eyni fikirdə olub onu imam adlandıranda, Allahın bu işə razılığı əlaməti sayılardı. Əgər bir nəfər tənə edərək və ya bidətlə onların işindən özünü kənara çəksəydi, onu fikrindən daşındırardılar. Etiraz etsəydi, möminlərin yolu ilə getmədiyi üçün ona qarşı üsyan edərdilər və Allah da ona layiq olduğunu verərdi».[76]

13) Kuleyni istinadla Cəfər əs-Sadiqdən rəvayət edir ki, bir qadın gəlib ondan: «Mən Əbu Bəkr və Ömərin xəlifəliyini qəbul edib onları sevə bilərəmmi?» – deyə soruşduqda, o demişdir: «Bəli, qəbul edə bilərsən». Qadın: «Mən Rəbbimin hüzurunda olduğum zaman "Bunu sən mənə əmr etdin" – deyə Ona xəbər verə bilərəmmi?!» – deyə soruşduqda, Cəfər ona: "Bəli" – deyə cavab verdi[77].

---

[73] «Səhihu-l-Buxari», 1/601, 402-ci hədis.
[74] «ət-Tövbə» surəsi, 84.
[75] Meysəm. «Şərh Nəhcu-l-Bəlağə», 1/31, Tehran çapı.
[76] «Nəhcu-l-Bəlağə», səh:366-367 (tərcümədə səh.298, Tehran çapı, 1995)
[77] «ər-Ravzə minə-l-Kafi», 8/101, 238.

14) Məclisi istinadla Cəfər əs-Sadiqdən, o da babalarından, onlar da Əlidən (r.a.) rəvayət etmişdir: «Peyğəmbərimizin (s.a.s.) səhabələrini söyməməyi sizə vəsiyyət edirəm. Onlar Peyğəmbərdən (s.a.s.) sonra dinə heç bir yenilik gətirməmişlər. Həqiqətən, Peyğəmbər (s.a.s.) də belə vəsiyyət etmişdir».[78]

15) ət-Tabrisi əl-Baqirdən rəvayət edir ki, o demişdir: «Mən Əbu Bəkr (r.a.) və Ömərin (r.a.) fəzilətli səhabə olduqlarını inkar etmirəm, lakin Əbu Bəkr (r.a.) Ömərdən (r.a.) əfzəldir».[79]

16) əl-Murtəza rəvayət edir ki, Cəfər bin Məhəmməd peyğəmbərin (s.a.s.) qəbrini ziyarət edərkən (onun yanında dəfn olunmuş) Əbu Bəkr (r.a.) və Ömərə (r.a.) də salam verərdi.[80]

17) Əli və Ömər ibnu-l-Xəttab (r.a.) Rum döyüşünə çıxarkən məsləhətləşəndə Əli (r.a.) Ömərə (r.a.) belə demişdir: «Sən bu düşmənin üzərinə özün gedib onlarla görüşsən, müsəlmanların öz ölkələrinin qurtaracağından başqa sığınacaqları[81] olmaz. Onların səndən sonra müraciət edəcəkləri bir başçıları yoxdur. Sən gəl onların yanına sınaqdan çıxmış bir adam, onunla birlikdə döyüşkən ağıllı adamlar göndər. Əgər Allah bu yolla səni qalib çıxarsa, istədiyin elə bu idi. Yox, başqa cür olsa, insanlara dayaq və müsəlmanların ümid yeri olarsan».[82]

18) Ömər özü farslarla döyüşə çıxarkən onunla (Əli (r.a.) ilə) məsləhətləşdiyi zaman Əlinin (r.a.) Ömər (r.a.) haqqında dedikləri bundan da aydındır. O demişdir: «Bu elə bir işdir ki, onun köməyinə gəlib-gəlməmək çoxluq və ya azlıqdan asılı deyil. Bu, Allahın qalib çıxardığı və adamları onun uğrunda səfərbər etdiyi, hazırladığı və imdad etdiyi dindir ki, çatdığı səviyyəyə çatıb və çıxdığı yerdə üzə çıxıb. Bizə Allah vəd verib. Allah Öz əhdini yerinə yetirən, Öz əsgərlərinə kömək edəndir. Boyunbağıda nizamlayıcının[83] əhəmiyyəti nə qədərdirsə, əmrin etibar edildiyi adamın[84] əhəmiyyəti də o qədərdir. Qoy əcəmlər sənə baxıb desinlər: "Ərəblərin kökü budur, onu kəssəniz, rahat olarsınız". Bu onların sənə qarşı hücumlarını çətinləşdirər. Onların mənim qeyd etdiyim sayca

[78] «Biharu-l-ənvar», 22/305, 306.
[79] «əl-İhticac», səh.230, Kərbəla çapı.
[80] «əş-Şafi», səh.238.
[81] «Sığınacaq» deyəndə, arxalanacaqları mərkəz nəzərdə tutulur.
[82] «Nəhcu-l-Bəlağə», səh:193 (tərcümədə səh.167-168).
[83] Nizamlayıcı, muncuqların düzüldüyü ip mənasındadır.
[84] «Əmrin etibar edildiyi adamın» ifadəsi «əmr edən» mənasındadır. Bununla xəlifə nəzərdə tutulur.

çoxluğuna gəlincə, biz keçmişdə də say çoxluğu hesabına deyil, Allahın köməyi və yardımı ilə döyüşmüşük»[85].

19) Ömərlə (r.a.) Əli (r.a.) arasında möhkəm dostluğun olmasına Əlinin (r.a.) Fatimeyi Zəhradan (r.a.) olan qızını ona ərə verməsi də dəlalət edir. Kuleyni Müaviyə bin Əmmardan Əbu Abdullah əleyhissəlam haqqında bir rəvayət söyləyir. Müaviyə deyir ki, mən ondan əri ölmüş arvadın öz evində, yoxsa harada istəsə qalmalı olduğunu soruşduqda, o dedi: «Əlbəttə, harada istəsə. Çünki Əli (r.a.) də Ömər (r.a.) öləndən sonra Ümmü Gülsümün talağını alıb, onu öz evinə gətirdi».[86]

20) Əli (r.a.) demişdir: «Mən Məhəmməd peyğəmbərin (s.a.s.) əshabını gördüm. İçinizdə onlara bənzər bir adam belə görmürəm. Onlar saçları dağılmış, toz-torpağa bulanmış bir halda sabahı açar, gecələrini namazla keçirərdilər. Kimi alnını torpağa sürtərdi, kimi üzünü, qiyaməti xatırlayanda köz kimi yanardılar. Alınları səcdə etməkdən keçinin dizlərinə dönmüş, qabıq bağlamışdı. Allahı yada salanda əzab qorxusundan, savab ümidindən göz yaşı tökərdilər. Hətta elə ağlayardılar ki, yaxaları islanar və yelin əsdirdiyi ağac kimi titrəyərdilər».[87]

[85] «Nəhcu-l-Bəlağə» səh: 203-204 (tərcümədə səh:166-167 Tehran çapı-1995).

[86] «əl-Kafi fi-l-furu» - Ər evinə köçəndən sonra əri ölmüş qadın onun vəfatından sonra harada qalmalıdır- fəsli, 2-ci cild, səh:311.

[87] «Nəhcu-l-Bəlağə» səh: 143 (tərcümədə səh.257, Tehran çapı, 1995).

## III XƏLİFƏ:

## OSMAN BİN ƏFFAN (r.a.)

Adı: Osman bin Əffan
Atasının adı: Əffan bin Əbi-l-As
Anasının adı: Ərva bint Kureyz
Künyəsi: Əbu Amr
Ləqəbi: zi-n-Nureyn[88]
Anadan olduğu tarix: Fil ilindən altı il sonra (təxminən 576-cı il) Məkkə şəhərində anadan olmuşdur.

Osman (r.a.) Əbu Bəkrin (r.a.) dəvəti ilə islamı qəbul etmiş ilk on müsəlmandan biridir. O, 34 yaşında islam dinini qəbul etmiş və Həbəşistana hicrət etmiş ilk müsəlmanlardan olmuşdur. O, peyğəmbərin (s.a.s.) ən yaxın səhabələrindən və cənnətlə müjdələnmiş on nəfərdən biridir. Bir çox döyüşlərdə işqtirak etmiş, malı və canı ilə İslam dininə yardım etmişdir. Ömər (r.a.) şəhid olduqdan sonra, səhabələrin şurası tərəfindən xəlifə seçilmişdir. O, 11 il 11 ay xəlifə olmuş və islam dininə fayda verən bir çox xeyirli işlər görmüşdür:

1. Dəniz donanmasını yaratmışdır.
2. Fars imperiyasının qalan hissəsini, Nil çayının Nobə diyarını və Məğribi fəth etmişdir.
3. Quranı cəm etmişdir (yəni kitab halına salmışdır).

Osmanın zövcələri və övladları.[89]

1. Məhəmməd peyğəmbərin (s.a.s.) qızları Ruqiyyə (r.a.)-(vəfat etdikdən) sonra isə Ummu Gülsüm (r.a.) ilə evlənmişdir. Ruqiyyədən (r.a.) olan övladı: Abdullah.
2. Ummu Amr bint Cundəb. Övladları: Amr, Xalid, Əbən, Ömər, Məryəm.
3. Fatimə bintu-l-Valid. Övladları: Valid, Osman.
4. Ummu əl-Bənin bint Uyeynə. Övladı: Abdullah.
5. Nailə bintu-l-Fərafisa. Övladı: Məryəm.

---

[88] Peyğəmbərin (s.a.s.) iki qızını – Ruqiyyə (r.a.) və Ummu Gülsümü (r.a.) aldığına görə Peyğəmbər (s.a.s.) bu ləqəbi ona vermişdir.

[89] Bu tarixi məlumatları ibn Cərir ət-Təbəri «Tarixu-l-uməm val-muluk» kitabında (4-cü cild, səh.420) qeyd etmişdir.

Vəfatı: hicri tarixi ilə 35-ci il zi-l-hiccə ayının 18-i cümə günü Osman (r.a.) evində Quran oxuduğu zaman xaricilər[90] zorla onun evinə girdilər. Onların arasında Sədus qəbiləsindən Cəbələ adlı birisi onu qılıncla vurduqda, Osman (r.a.) müdafiə olunmaq üçün əlini uzatdı və qılınc onun əlini kəsdi. Osman: «Allaha and olsun ki, bu əl ilə Quran yazılıb» – dedi. Onun əlindən axan bir damla qan bir ayənin üzərinə düşdü. Bu ayədə Uca Allah buyurur:

وَإِنْ تَوَلَّوْا فَإِنَّمَا هُمْ فِي شِقَاقٍ فَسَيَكْفِيكَهُمُ اللَّهُ وَهُوَ السَّمِيعُ الْعَلِيمُ ﴿١٣٧﴾

**«Belə olduqda sən onların düşmənçiliyindən qorxma! Allah sənə** (tezliklə sənin intiqamını onlardan almağa) **kifayət edər. O** (hər şeyi) **eşidən və biləndir»**[91]

Sonra onu qılıncla vurub şəhid etdilər.

## Osmanın (r.a.) fəzilətinə dair ayə və hədislər:

1) Uca Allah buyurur:

إِنْ تَتُوبَا إِلَى اللَّهِ فَقَدْ صَغَتْ قُلُوبُكُمَا وَإِنْ تَظَاهَرَا عَلَيْهِ فَإِنَّ اللَّهَ هُوَ
مَوْلَاهُ وَجِبْرِيلُ وَصَالِحُ الْمُؤْمِنِينَ وَالْمَلَائِكَةُ بَعْدَ ذَٰلِكَ ظَهِيرٌ ﴿٤﴾

**«Əgər Peyğəmbərə qarşı bir-birinizə kömək etsəniz,** (bilin ki) **Allah onun hamisi, Cəbrail, əməlisaleh möminlər və bunlardan sonra (bütün) mələklər də onun köməkçiləridir!»**[92]

İbn Abbas (r.a.) İbn Məsud (r.a.) İbn Ömər (r.a.) və başqaları bu ayədəki əməlisaleh möminlərin Əbu Bəkr (r.a.) Ömər (r.a.) Osman (r.a.) Əli (r.a.) və başqalarının olduqlarını təfsir etmişlər.[93]

---

[90] İslam camaatından ayrılıb onlara qarşı vuruşanlar.
[91] «əl-Bəqərə» surəsi, 137.
[92] «ət-Təhrim» surəsi, 4.
[93] «Təfsir ibn Kəsir», 4/500.

2) Uca Allah buyurur:

وَسَيُجَنَّبُهَا الْأَتْقَى ﴿١٧﴾ الَّذِي يُؤْتِي مَالَهُ يَتَزَكَّى ﴿١٨﴾ وَمَا لِأَحَدٍ عِنْدَهُ
مِنْ نِعْمَةٍ تُجْزَى ﴿١٩﴾ إِلَّا ابْتِغَاءَ وَجْهِ رَبِّهِ الْأَعْلَى ﴿٢٠﴾ وَلَسَوْفَ يَرْضَى ﴿٢١﴾

**«Allahdan qorxub pis əməllərdən çəkinən isə ondan** (atəşdən) **uzaqlaşdırılar. O kimsə ki, malını** (Allah yolunda) **verib** (günahlardan) **təmizlənər. O şəxsin boynunda heç kəsin bir minnəti yoxdur ki, onun əvəzi verilsin. O ancaq ən Uca olan Rəbbinin rizasını qazanmaq üçün belə edər. And olsun ki, o** (öz Rəbbinin cənnətdə ona verəcəyi nemətlərə görə) **razı olacaqdır»**[94]

Əksər təfsir alimlərinin rəyinə görə bu ayələr Əbu Bəkr (r.a.) üçün nazil olub və Osman (r.a.) da daxil olmaqla bütün möminlərə şamil edilir.[95]

3) Uca Allah buyurur:

وَالَّذِي جَاءَ بِالصِّدْقِ وَصَدَّقَ بِهِ أُولَٰئِكَ هُمُ الْمُتَّقُونَ ﴿٣٣﴾

**«Haqqı** (Quranı) **gətirən və onu təsdiq edənlər əsl müttəqilərdir»**[96]

Onu təsdiq edənlər Əbu Bəkr (r.a.) Ömər (r.a.) Osman (r.a.) və başqa möminlərdir.[97]

4) Əbu Musa əl-Əş‘ari (r.a.) rəvayət edir ki, «Bir dəfə Osman bin Əffan (r.a.) Peyğəmbərin (s.a.s.) yanına daxil olmaq üçün izn istədi. Mən bunu Peyğəmbərə (s.a.s.) çatdırdıqda, o dedi: "İzn ver gəlsin və onu cənnətlə müjdələ!"…»[98]

5) Əbu Səid əl-Xudri (r.a.) rəvayət edir ki, «Peyğəmbər (s.a.s.) demişdir: "Mənim səhabələrimi söyməyin! Həqiqətən, sizdən biriniz Uhud

[94] «əl-Leyl» surəsi, 17-21.
[95] «Təfsir ibn Kəsir», 4/762.
[96] «əz-Zumər» surəsi, 33.
[97] Ət-Tabəri, «Camiu-l-bəyan», 3/24.
[98] «Səhihu-l-Buxari», 7/25, 3674-cü hədis.

dağı boyda qızıl sədəqə versə belə, onlardan birinin verdiyi bir ovuca (sədəqəyə) hətta yarısına belə çata bilməz."»[99]

6) Übeydullah bin Adiyyin (r.a.) rəvayət etdiyi hədisdə deyilir ki, «Bir nəfər gəlib Osmana (r.a.) Validdən (r.a.) şikayət etdikdə o demişdir: "Həqiqətən, Uca Allah Məhəmmədi (s.a.s.) haqq (Quran) ilə göndərmişdir. Mən Allaha və Onun elçisinə itaət edənlərdən, onun gətirdiyinə iman gətirən, iki dəfə (əvvəl Həbəşistana, sonra Mədinəyə) hicrət edənlərdən, onun (s.a.s.) ən yaxın səhabələrindən və ona beyət edənlərdən oldum. Allaha and olsun ki, vəfat etdiyi günə qədər ona asi olmadım və onu aldatmadım. Həmçinin, Əbu Bəkr və Ömərə olan münasibətim də belə idi».[100]

7) Ənəs (r.a.) rəvayət edir ki, «Bir dəfə Peyğəmbər (s.a.s.) Əbu Bəkr (r.a.) Ömər (r.a.) və Osmanla (r.a.) bərabər Uhud dağına qalxdılar. Bu vaxt dağ silkələndi və Peyğəmbər (s.a.s.) ona dedi: «Sakit ol, ey Uhud! Sənin üzərində peyğəmbər, siddiq və iki şəhid var»[101].

**Qeyd:** Bəli, Peyğəmbərin (s.a.s.) Uhud dağına müraciət etməsi bəzi oxucularımıza qəribə gəlsə də, bu, faktdır. Çünki bu, Allah tərəfindən olan bir möcüzədir. O, Öz elmindən istədiyi bəndəsinə bəxş edər:

يُؤْتِي الْحِكْمَةَ مَنْ يَشَاءُ ۚ وَمَنْ يُؤْتَ الْحِكْمَةَ فَقَدْ أُوتِيَ خَيْرًا كَثِيرًا ۗ
وَمَا يَذَّكَّرُ إِلَّا أُولُو الْأَلْبَابِ ﴿٢٦٩﴾

**«Allah istədiyi şəxsə hikmət** (elm, müdriklik) **bəxş edər. Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir verilmişdir. Bunu ancaq ağıllı adamlar dərk edərlər»**[102]

8) Peyğəmbər (s.a.s.): «Rumə quyusunu alan cənnətlikdir» – dedikdə, Osman (r.a.) o quyunu aldı (və müsəlmanların ixtiyarına verdi). Peyğəmbər (s.a.s.): «Qoşunu təchiz edən cənnətlikdir» – dedikdə, Osman (r.a.) qoşunu təchiz etdi.[103]

9) Osman bin Məuhəb (r.a.) rəvayət edir ki, «Misir əhlindən olan bir şəxs həcc etdiyi zaman bir qövmün arasında olan şeyx haqqında soruşdu.

---

[99] «Səhihu-l-Buxari», 7/25, 3673-cü hədis.
[100] «Səhihu-l-Buxari», 7/66, 3696-cı hədis.
[101] «Səhihu-l-Buxari», 7/66, 3697-ci hədis.
[102] «əl-Bəqərə» surəsi, 269.
[103] «Səhihu-l-Buxari», 7/65, 7-ci fəsil, 2778-ci hədis.

Onun Abdullah bin Ömər (r.a.) olduğunu bildikdən sonra ona yaxınlaşdı və dedi: "Osmanın Uhud döyüşünü tərk etdiyini bilirsən?" Abdullah (r.a.) dedi: "Bəli". O yenə: "Osmanın Bədr döyüşünü tərk etdiyini bilirsən?" – deyə soruşduqda Abdullah: "Bəli" – deyə cavab verdi. O, bir daha: "Osmanın Rizvan beyətini tərk etdiyini bilirsən?" – deyə soruşduqda, Abdullah: "Bəli" – deyə cavab verdi. Sonra o: "Allahu əkbər" deyib etirazını bildirdi. Abdullah ona dedi: "Mən şəhadət verirəm ki, Allah onu Uhud döyüşünü tərk etdiyinə görə bağışlamışdır[104]. Bədr döyüşündə isə Peyğəmbər (s.a.s.) özü ona xəstə olan zövcəsini (Peyğəmbərin (s.a.s.) qızı Ruqiyyəni) ziyarət etmək üçün icazə vermişdir. Hətta Peyğəmbər (s.a.s.) onu: "Həqiqətən, Bədrdə iştirak edən şəxsin qazandığı savab qədər sənə də savab yazılır və ona çatan pay qədər sənə də qənimətdən pay çatır" – deyə xəbər vermişdir. Rizvan bey‘əti isə, Osmanın (r.a.) Peyğəmbər (s.a.s.) tərəfindən Məkkəyə göndərilməsindən sonra olmuşdur. Peyğəmbər (s.a.s.) Osmanın (r.a.) beyətdə iştirak etmədiyini görüb sağ əlini qaldırdı və dedi: "Bu, Osmanın əlidir". Sonra da onu sol əlinin üzərinə qoydu və dedi: "Bu, Osmanın əvəzinə olan beyətdir".

Sonra Abdullah bin Ömər (r.a.) ona dedi: "İndi isə arxayın gedə bilərsən"».[105]

10) Abdullah ibn Ömər (r.a.) demişdir: «Osmanı söyməyin! O, bizim xeyirlilərdən (fəzilətli olanlardan) idi».[106]

11) Əlinin (r.a.) tərəfdarları ondan soruşdu: «Sabah xaricilər bizdən Osman (r.a.) haqqında soruşduqda, biz onlara nə cavab verək?» Əli (r.a.) dedi: «Deyin ki, o, iman gətirib saleh əməl edənlərdən, Allahdan qorxub yaxşılıq edənlərdən idi».[107]

12) Əli bin Əbu Talib (r.a.) Allahın bu kəlamını nəql edib demişdir[108]:

إِنَّ ٱلَّذِينَ سَبَقَتۡ لَهُم مِّنَّا ٱلۡحُسۡنَىٰٓ أُوْلَٰٓئِكَ عَنۡهَا مُبۡعَدُونَ ﴿١٠١﴾

---

[104] Buna Allahın bu kəlamı dəlildir: « (Uhud döyüşündə) **iki ordu qarşılaşdığı gündə sizdən üz döndərən şəxslərin kəsb etdiyi bəzi şeylər şeytanın onları yolda çıxarmaq istəməsi üzündən baş verdi.** (Tövbə etdikdən sonra) **Allah artıq onları bağışladı. Həqiqətən, Allah bağışlayan və həlimdir»** («Ali İmran» surəsi, 155).

[105] «Səhihu-l-Buxari» 7/66, 3698-ci hədis.

[106] Əhmədin «Müsnəd» əsəri, 1/461.

[107] Əhmədin «Müsnəd» əsəri, 1/474.

[108] Yəni Allahın kəlamını xatırlatmışdır.

«(Yaxşı əməllərin mükafatı olaraq) **öncədən özlərinə nemət** (cənnət, əbədi səadət) **yazılmış kəslər cəhənnəmdən uzaqda olacaqlar»**[109]. Osman da onlardandır».[110]

13) Əli bin Əbu Talib (r.a.) Kufə məscidində xütbə verdiyi zaman demişdir: «Ey insanlar! Osmanın əleyhinə danışırsınız, lakin həqiqətən, mən və Osman Allahın müjdələdiyi müsəlmanlardanıq" – deyib bu ayəni oxudu:

وَنَزَعْنَا مَا فِي صُدُورِهِم مِّنْ غِلٍّ إِخْوَانًا عَلَىٰ سُرُرٍ مُّتَقَابِلِينَ ﴿٤٧﴾

**"Biz onların ürəklərindəki kin-küdurəti çıxarıb atdıq. Onlar qardaş olub taxt üstündə qarşı-qarşıya əyləşərlər"**»[111]

14) Əli (r.a.) demişdir: «Əbu Bəkrə, Ömərə, Osmana beyət gətirmiş adamlar onlara beyət gətirdikləri məsələdə mənə də beyət gətirmişlər. Onlarda qayda belə idi ki, orada iştirak edən adam özü istəyəni seçə bilməz, o zaman orada olmayan isə seçilmiş adamı rədd edə bilməzdi. Yalnız mühacirlərin və ənsarların şurası bir adam haqqında eyni fikirdə olub onu imam adlandıranda, Allahın bu işə razılığı əlaməti sayılardı. Əgər bir nəfər tənə edərək və ya bidətlə onların işindən özünü kənara çəksəydi, onu fikrindən daşındırardılar. Etiraz etsəydi, möminlərin yolu ilə getmədiyi üçün ona qarşı üsyan edərdilər və Allah da ona layiq olduğunu verərdi».[112]

15) Məclisi istinadla Cəfər əs-Sadiqdən, o da babalarından, onlar da Əlidən (r.a.) rəvayət etmişdir ki: «Peyğəmbərimizin (s.a.s.) səhabələrini söyməməyi sizə vəsiyyət edirəm. Onlar Peyğəmbərdən (s.a.s.) sonra dinə heç bir yenilik gətirməmişlər. Həqiqətən, Peyğəmbər (s.a.s.) də belə vəsiyyət etmişdir».[113]

16) Xaricilər Əlinin (r.a.) yanına gəlib Osmandan (r.a.) şikayət edəndə, o Osmanın (r.a.) yanına gəlib belə demişdir: «Arxamdakı adamlar məni səninlə özləri arasında səfir etmişlər. Allaha and olsun ki, bilmirəm sənə nə deyim. Elə bir iş yoxdur ki, mən bilim, sən yox. Biz nəyi bilirik, sən də bilirsən. Bir şeydə səndən irəlidə deyilik ki, sənə onun haqqında məlumat

---

[109] «əl-Ənbiya» surəsi, 10-ci ayə.
[110] Əhmədin «Müsnəd» əsəri, 1/475.
[111] «əl-Hicr» surəsi, 47-ci ayə.
[112] «Nəhcu-l-Bəlağə», səh:366-367 (tərcümədə səh.298, Tehran çapı, 1995-ci il)
[113] «Biharu-l-ənvar» 22/305-306.

verək.[114] Səndən bir şey də gizlətməmişik ki, indi onu sənə çatdıraq. Sən bizim gördüklərimizi görmüsən, eşitdiklərimizi də eşitmisən, sən də Allahın elçisinin (s.a.s.) səhabələrindən olmusan. Nə ibn Əbu Quhafə (Əbu Bəkr) nə də İbn əl-Xəttab haqq işində səndən irəli deyillər. Sən Allahın elçisinin (s.a.s.) atasına, qan qohumluğuna görə onların hər ikisindən də yaxınsan. Sən onun o biri iki kürəkəninin[115] nail olmadığına nail olmusan[116]».[117]

17) Səid bin Zeyd (r.a.) demişdir: «Mən şəhadət verirəm ki, Peyğəmbərin (s.a.s.) belə dediyini eşitdim: "On nəfər cənnətlikdir: Əbu Bəkr, Ömər, Osman, Əli, Talhə, əz-Zubeyr ibnu-l-Əvvam, Sə‘d bin Malik, Əbdü-r-Rəhman bin Auf, Səid bin Zeyd, Əbu Ubeydə ibnu-l-Cərrah"».[118]

18) Əli (r.a.) demişdir: «Mən Məhəmməd peyğəmbərin (s.a.s.) əshabını gördüm. İçinizdə onlara bənzər bir adam belə görmürəm. Onlar saçları dağılmış, toz-torpağa bulanmış bir halda sabahı açar, gecələrini namazla keçirərdilər. Kimi alnını torpağa sürtərdi, kimi üzünü, qiyaməti xatırlayanda köz kimi yanardılar. Alınları səcdə etməkdən keçinin dizlərinə dönmüş, qabıq bağlamışdı. Allahı yada salanda əzab qorxusundan, savab ümidindən göz yaşı tökərdilər. Hətta elə ağlayardılar ki, yaxaları islanar və yelin əsdirdiyi ağac kimi titrəyərdilər».[119]

[114] Bu sözlər Əlinin (r.a.) çox təvazökar olduğuna daha bir sübutdur.

[115] Burada Peyğəmbərin (s.a.s.) qızları Fatimənin (r.a.) həyat yoldaşı Əli (r.a.) və Zeynəbin (r.a.) həyat yoldaşı Əbu-l-As (r.a.) nəzərdə tutulur.

[116] Yəni, Peyğəmbərin (s.a.s.) iki qızını – Ruqiyyə (r.a.) və Ummu Gülsüm (r.a.) almısan.

[117] «Nəhcu-l-Bəlağə», səh: 234 (tərcümədə səh.169, Tehran çapı, 1995).

[118] Əbu Davudun «Sünən» kitabı, 12/262, 3635-ci hədis; «Səhih hədislər silsiləsi», 3/879 - 3886-cı hədis.

[119] «Nəhcu-l-Bəlağə», səh: 143 (tərcümədə səh.257, Tehran çapı, 1995).

## IV XƏLİFƏ:

## ƏLİ BİN ƏBU TALİB (r.a.)

Adı: Əli bin Əbu Talib
Atasının adı: Əbu Talib[120] bin Əbdü-l-Müttəlib
Anasının adı: Fatimə bint Əsəd
Künyəsi: Əbu-l-Həsən
Ləqəbi: Əbu əs-Sibteyn[121], Əbu Turab[122]
Anadan olduğu tarix: Fil ilindən 30 il sonra (təxminən 600-cü il) Məkkə şəhərində anadan olmuşdur.

Əli (r.a.) islamı qəbul edən ilk şəxslərdən[123] biridir. O, 10 yaşında islamı qəbul etmiş, Peyğəmbərin (s.a.s.) ən yaxın səhabələrindən və cənnətlə müjdələnmişlərdəndir. Bir çox döyüşlərdə iştirak etmiş, malı və canı ilə islam dininə yardım etmişdir. Osman (r.a.) şəhid olduqdan sonra, səhabələrin şurası tərəfindən xəlifə seçilmişdir. O, 4 il 9 ay xəlifə olmuş və islam dininə fayda verən bir çox xeyirli işlər görmüşdür:

1) Sayı 12 minə yaxın, qəlbində mərəz olan xaricilər Peyğəmbərin (s.a.s.) yolu ilə gedən Əlinin başçılıq etdiyi camaatdan ayrılıb, ona qarşı çıxdılar və Əlini (r.a.) kafir saydılar. Əli (r.a.) nəsihət etmək üçün Abdullah bin Abbası (r.a.) onların yanına göndərdi. Onlar Əlini (r.a.) günahkar saydılar və üç məsələdə onu ittiham etdilər:

1-ci: Nə üçün Əli Müaviyə ilə sülh bağladıqda «əmirə-l-möminin[124]» ifadəsini qeyd etmədi?

2-ci Nə üçün Əli Müaviyə tərəfdən cariyə[125] götürmədi?

3-cü: Nə üçün Əli Quran və Sünnə (hədis) ilə yox, iki nəfərin[126] danışığı nəticəsində əldə edilən razılıq ilə sülh bağladı?

---

[120] Adı: Əbd Manaf.

[121] Peyğəmbər (s.a.s.) bu ləqəbi ona, iki nəvəsinin (Həsənin və Hüseynin-r.a.) atası olduğuna görə vermişdir. Əbu Sibteyn – yəni, iki nəvənin atası.

[122] Peyğəmbər (s.a.s.) Əlini (r.a.) torpağın üzərində uzandığını görüb, ona bu ləqəbi vermişdir. Əbu Turab – yəni torpaq atası.

[123] İslam dinini qəbul edən ilk şəxslər: qadınlardan Xədicə (r.a.) kişilərdən Əbu Bəkr (r.a.) uşaqlardan Əli (r.a.) qullardan Zeyd ibnu-l-Haris (r.a.).

[124] Yəni, möminlərin əmiri.

[125] Yəni, qənimət kimi götürülən qul qadın.

[126] Yəni Əbu Musa əl-Əş‘ari və Amr ibnu-l-As.

Abdullah bin Abbas (r.a.) onların etirazlarını dinlədikdən sonra onlara dedi:

1–ci etirazınıza cavab: Məhəmməd (s.a.s.) Hudeybiyyə zamanı müşriklərlə sülh müqaviləsi bağladıqda, "rəsulullah" (Allahın elçisi) ifadəsini qeyd etmədi. Həmçinin, Əlinin (r.a.) etdiyi bu əməl Sünnəyə müvafiqdir.

2-ci etirazınıza cavab: Deyin görək Peyğəmbərin (s.a.s.) zövcəsi və möminlərin anası[127] sayılan qadından (Aişədən) cariyə olarmı?

3-cü etirazınıza cavab: Həqiqətən Əli Quran ilə hökm vermişdir, çünki Uca Allah müqəddəs kitabında buyurur:

وَإِنْ خِفْتُمْ شِقَاقَ بَيْنِهِمَا فَابْعَثُوا حَكَمًا مِنْ أَهْلِهِ
وَحَكَمًا مِنْ أَهْلِهَا إِنْ يُرِيدَا إِصْلَاحًا يُوَفِّقِ اللَّهُ بَيْنَهُمَا إِنَّ
اللَّهَ كَانَ عَلِيمًا خَبِيرًا ﴿٣٥﴾

«[Ey möminlər!] **Əgər onların** (ər-arvad və s.) **arasında ixtilaf olacağından qorxsanız, o zaman hər tərəfdən bir münsif** (vasitəçi) **təyin edib göndərin. Əgər bu iki vasitəçi onları barışdırmaq istəsə, Allah da onların köməyi olar. Həqiqətən, Allah** (hər şeyi) **bilən və** (hər şeydən) **xəbərdardır.**»[128]

Bu cavablardan sonra onların əksəriyyəti düz yola qayıtdı. Yerdə qalanı isə fitnə-fəsad törətməkdə davam etdilər. Onlar Abdullah bin Xabbəbi (r.a.) onun zövcəsini və onlarla olan üç qadını da öldürdülər. Bu hadisə Əliyə (r.a.) çox təsir etdi. Bu dəfə o, əl-Hərb bin Murranı (r.a.) onların yanına göndərdi. Onlar Əlinin (r.a.) bu elçisini də öldürdülər. Əli (r.a.) onlardan öldürülənlərin qatillərini tələb etdikdə, onlar qatilləri Əliyə (r.a.) verməkdən imtina etdilər və: «Biz hamımız qatilik» – dedilər. Səbri tükənmiş Əli (r.a.) qoşun hazırlayıb onların üzərinə hücum etdi və Bağdad şəhərinin cənub-şərqində yerləşən Nəhrəvan adlı yerdə onların hamısını məhv etdi.[129]

---

[127] «**Peyğəmbər möminlərə onların özlərindən daha yaxındır. Onun zövcələri möminlərin analarıdır.** (Heç kəs onlarla evlənə bilməz)» («əl-Əhzab» surəsi, 6).

[128] «ən-Nisa» surəsi, 35.

[129] İbn Kəsir. «əl-Bidəyətu və ən-Nihəyə», 4-cü cild, 289-cu səhifə.

2) «Səffeyn» və «Cəməl» döyüşləri. Əli (r.a.) bunu İslam ümmətini islah etmək üçün etmişdir.

Əlinin (r.a.) zövcələri və övladları:[130]

1. Məhəmməd peyğəmbərin (s.a.s.) qızı Fatimə. Övladları: Həsən, Hüseyn, Zeynəb, Ümm Gülsüm.

**Qeyd:** Əli (r.a.) Fatimə (r.a.) vəfat edənə qədər heç bir qadınla evlənməmişdir. Fatimə (r.a.) Peyğəmbərdən (s.a.s.) 6 ay sonra Əbu Bəkrin (r.a.) xilafəti zamanında vəfat etmişdir.

2. Ummu-l-Bənin bint hizəm. Övladları: Abbas, Cəfər, Abdullah, Osman[131].

3. Leyla bint Məsud. Övladları: Ubeydullah, Əbu Bəkr.

4. Ummu Həbib bint Rabiyə. Övladları: Ömər, Ruqiyyə.

5. Umamə bint Əbi-l-As. Övladı: Məhəmməd[132].

Vəfat etdiyi tarix: Hicri tarixi ilə 40-cı ildə sübh namazını qılmağa gedərkən Əbdürrəhman bin Mülcəm tərəfindən qılıncla vurulub şəhid olmuşdur.

## Əlinin (r.a.) fəzilətlərinə dair ayə və hədislər:

1) Uca Allah buyurur:

إِنْ تَتُوبَآ إِلَى ٱللَّهِ فَقَدْ صَغَتْ قُلُوبُكُمَا وَإِنْ تَظَٰهَرَا عَلَيْهِ فَإِنَّ ٱللَّهَ هُوَ
مَوْلَىٰهُ وَجِبْرِيلُ وَصَٰلِحُ ٱلْمُؤْمِنِينَ وَٱلْمَلَٰٓئِكَةُ بَعْدَ ذَٰلِكَ ظَهِيرٌ ﴿٤﴾

**«Əgər Peyğəmbərə qarşı bir-birinizə kömək etsəniz,** (bilin ki) **Allah onun hamisi, Cəbrail, əməlisaleh möminlər və bunlardan sonra** (bütün) **mələklər də onun köməkçiləridir!»**[133]

---

[130] Bu tarixi məlumatları ibn Cərir ət-Təbəri «Tarixu-l-uməm val-muluk» kitabında (5-ci cild, səh.153-154) qeyd etmişdir.

[131] Cəfər, Abdullah və Osman Hüseynlə (r.a.) bərabər Kərbəlada şəhid olmuşlar.

[132] Məhəmməd bin Hənəfiyyə adı ilə tanınmışdır.

[133] «ət-Təhrim» surəsi, 4.

İbn Abbas (r.a.) İbn Məsud (r.a.) İbn Ömər (r.a.) və başqaları bu ayədəki əməlisaleh möminlərin Əbu Bəkr (r.a.) Ömər (r.a.) Osman (r.a.) Əli (r.a.) və başqalarının olduqlarını təfsir etmişlər.[134]

2) Uca Allah buyurur:

وَسَيُجَنَّبُهَا الْأَتْقَى ﴿١٧﴾ الَّذِي يُؤْتِي مَالَهُ يَتَزَكَّى ﴿١٨﴾ وَمَا لِأَحَدٍ عِنْدَهُ
مِنْ نِعْمَةٍ تُجْزَى ﴿١٩﴾ إِلَّا ابْتِغَاءَ وَجْهِ رَبِّهِ الْأَعْلَى ﴿٢٠﴾ وَلَسَوْفَ يَرْضَى ﴿٢١﴾

**«Allahdan qorxub pis əməllərdən çəkinən isə ondan** (atəşdən) **uzaqlaşdırılar. O kimsə ki, malını** (Allah yolunda) **verib** (günahlardan) **təmizlənər. O şəxsin boynunda heç kəsin bir minnəti yoxdur ki, onun əvəzi verilsin. O ancaq ən Uca olan Rəbbinin rizasını qazanmaq üçün belə edər. And olsun ki, o** (öz Rəbbinin cənnətdə ona verəcəyi nemətlərə görə) **razı olacaqdır»**[135]

Əksər təfsir alimlərinin rəyinə görə bu ayələr Əbu Bəkr (r.a.) üçün nazil olub və Əli (r.a.) də daxil olmaqla bütün möminlərə şamil edilir.[136]

3) Uca Allah buyurur:

وَالَّذِي جَاءَ بِالصِّدْقِ وَصَدَّقَ بِهِ أُولَئِكَ هُمُ الْمُتَّقُونَ ﴿٣٣﴾

**«Haqqı** (Quranı) **gətirən və onu təsdiq edənlər əsl müttəqilərdir»**[137]

Onu təsdiq edənlər Əbu Bəkr (r.a.) Ömər (r.a.) Osman (r.a.) Əli (r.a.) və başqa möminlərdir.[138]

4) Əli bin Əbu Talib (r.a.) Kufə məscidində xütbə verdiyi zaman demişdir: «Ey insanlar! Osmanın əleyhinə danışırsınız, lakin həqiqətən, mən və Osman Allahın müjdələdiyi müsəlmanlardanıq" – deyib bu ayəni oxudu:

---

[134] «Təfsir ibn Kəsir», 4/500.
[135] «əl-Leyl» surəsi, 17-21.
[136] «Təfsir ibn Kəsir», 4/762.
[137] «əz-Zumər» surəsi, 33.
[138] Ət-Tabəri, «Camiul bəyan», 3/24.

وَنَزَعْنَا مَا فِي صُدُورِهِمْ مِنْ غِلٍّ إِخْوَانًا عَلَىٰ سُرُرٍ مُتَقَابِلِينَ ﴿٤٧﴾

**"Biz onların ürəklərindəki kin-küdurəti çıxarıb atdıq. Onlar qardaş olub taxt üstündə qarşı-qarşıya əyləşərlər"[139]»**[140]

5) Əbu Səid əl-Xudri (r.a.) rəvayət edir ki, «Peyğəmbər (s.a.s.) demişdir: "Mənim səhabələrimi söyməyin! Həqiqətən, sizdən biriniz Uhud dağı boyda qızıl sədəqə versə belə, onlardan birinin verdiyi bir ovuca (sədəqəyə) hətta yarısına belə çata bilməz"»[141].

6) Səhl bin Sə‘d (r.a.) rəvayət edir ki, Peyğəmbər (s.a.s.) demişdir: «Bayrağı sabah elə bir adama verəcəyəm ki, Allah onun əli ilə müsəlmanlara zəfər bəxş edəcək. Hamı səhərə qədər bayrağın kimə veriləcəyi haqqında düşündü. Səhabələr səhər peyğəmbərin (s.a.s.) yanına gəldilər. Onlardan hər biri bayrağın ona verilməsini arzulayırdı. Peyğəmbər (s.a.s.) Əli bin Əbu Talibin harada olduğunu soruşduqda, səhabələr onun gözlərindən şikayət etdiyini Peyğəmbərə (s.a.s.) xəbər verdilər. O, Əlini çağırtdırdı və onun üçün dua etdikdən sonra onun gözlərinin ağrısı keçdi. Peyğəmbər (s.a.s.) bayrağı ona verdi».[142]

Başqa bir rəvayətdə Peyğəmbər (s.a.s.) demişdir: «Bu bayrağı Allahın və Onun elçisinin sevdiyi bir insana verəcəyəm».[143]

7) Sə‘d bin Əbi Vəqqas (r.a.) rəvayət edir ki, «Peyğəmbər (s.a.s.) demişdir: "Harun Musaya yaxın olduğu kimi, sən də mənə yaxınsan"»[144]

8) Peyğəmbər (s.a.s.) demişdir: «Əliyə əziyyət verən, mənə əziyyət vermiş kimidir».[145]

9) Peyğəmbər (s.a.s.) demişdir: «Əli məndən sonra hər bir möminin dostu, sevimlisidir».[146]

---

139 «əl-Hicr» surəsi, 47-ci ayə.
140 Əhmədin «Müsnəd» əsəri, 1/453.
141 «Səhihu-l-Buxari», 7/25, 3673-cü hədis.
142 «Səhihu-l-Buxari», 7/87, 3701-ci hədis.
143 «Səhihu-l-Buxari, «7/87, 3702-ci hədis.
144 «Səhih Muslim», 15/169, 6167-ci hədis.
145 «Səhih hədislər silsiləsi», 5/373, 2295-ci hədis.
146 «Səhih hədislər silsiləsi», 5/263.

10) Əbu Səid əl-Xudri (r.a.) rəvayət edir ki, «Peyğəmbər (s.a.s.) demişdir: "Nəfsim əlində olan Allaha and olsun ki, əhli beytimi qəzəbləndirən cəhənnəmə vasil olar"».[147]

11) Ummu Sələmə (r.a.) demişdir: «Mən peyğəmbərdən (s.a.s.) belə eşitdim: "Əlini sevən məni sevmiş, məni sevən isə Allahı sevmiş olur. Əliyə nifrət edən mənə nifrət etmiş, mənə nifrət edən isə Allaha nifrət etmiş olur"».[148]

12) Peyğəmbər (s.a.s.) demişdir: «Ey Əli! Səni yalnız mömin sevər və sənə yalnız münafiq olan nifrət edər».[149]

13) İbn Abbas (r.a.) rəvayət edir ki, «Ömər (r.a.) demişdir: "Bizim içərimizdə ən gözəl Quran oxuyan Ubeyy və ən gözəl qazi (ədalətlə hökm verən) isə Əlidir"».[150]

14) Cabir bin Abdullahdan (r.a.) Əli (r.a.) haqqında soruşduqda o demişdir: «O, bəşərin (insanların) xeyirlisindən idi».[151]

15) Əbu Harun deyir ki, İbn Ömərlə (r.a.) oturmuşdum, birdən Nafi ibnu-l-Əzraq gəldi və onun başının üzərində dayanıb dedi: «Allaha and olsun, Əliyə nifrət edirəm». İbn Ömər (r.a.) başını ona tərəf döndərib dedi: «Allah sənə nifrət etsin! Dünya və onun içindəkilərdən üstün olan bir insana nifrət edirsən?!»[152]

16) Əhməd bin Hənbəl demişdir: «Əlinin fəzilətləri ilə bağlı olan xüsusiyyətlər peyğəmbərin (s.a.s.) başqa səhabələrinə verilməmişdir».[153]

17) Müdrik olmağı da onun fəzilətlərindən biridir. Bunu ondan rəvayət olunan çoxsaylı kəlamlar[154] da təsdiq edir:

– Elm peyğəmbərlərdən, mal isə (xüsusən) Qarun və Fironlardan mirasdır.

– Elm sahibini, malı isə sahibi qoruyur.

– Elm sahibinin dostu, mal sahibinin isə düşməni çox olar.

– Elmin oğrudan qorunmasına lüzum yoxdur, malın isə qorunması vacibdir.

– Elm sahibi şərəfli ünvanlar, mal sahibi isə (çox vaxt) simic və xəsis kimi ad qazanar.

---

[147] «Səhih hədislər silsiləsi», 5/643, 2488-ci hədis.
[148] «Səhih hədislər silsiləsi», 3/287, 1299-cu hədis.
[149] «Səhih hədislər silsiləsi», 4/298, 1720-ci hədis.
[150] «Səhihu-l-Buxari», 3/99.
[151] Əbdu-r-Rəzzaq. «əl-Müsənnəf», 12/82.
[152] Əbdu-r-Rəzzaq. «əl-Müsənnəf», 12/82.
[153] «Müstədrək», 3/107.
[154] «101 sual», səh.72.

– Xərclədikcə elm artar, mal isə azalar.

– Zaman keçdikcə elm cilalanır (artır) mal isə çürüyüb tələf olur.

– Elm qəlbi qüvvətləndirir, mal isə əksinə, zəiflədir.

– Elm təvazökarlıq, mal isə lovğalıq (təkəbbürlük) gətirir.

– Elm insanda mərhəmət, mal isə (çox vaxt) xəbislik (tamahkarlıq) doğurur.

# V XƏLİFƏ:
# HƏSƏN BİN ƏLİ (r.a.)

Adı: əl-Həsən bin Əli (r.a.)
Atasının adı: Əli bin Əbu Talib (r.a.)
Anasının adı: Fatimə (r.a.) bint Məhəmməd (s.a.s.)
Künyəsi: Əbu Məhəmməd
Anadan olduğu tarix: hicrətin 3-cü ilində ramazan ayının ortalarında Mədinə şəhərində anadan olmuşdur.

O, Peyğəmbərin (s.a.s.) ən yaxın səhabələrindən və cənnətlə müjdələnmişlərdəndir. Bir çox döyüşlərdə iştirak etmiş, malı və canı ilə islam dininə yardım etmişdir. Əli (r.a.) şəhid olduqdan sonra, səhabələrin şurası tərəfindən xəlifə seçilmişdir. O, 6 ay xəlifə olmuş və islam dininə fayda verən bir çox xeyirli işlər görmüşdür.

Gördüyü işlərin ən fəzilətlisi, iki müsəlman tayfasının arasına düşəcək qardaş qırğınının qarşısını almasıdır[155]. Artıq bu barədə Peyğəmbər (s.a.s.) sağlığında xəbər vermişdir: Əbu Bəkr (r.a.) rəvayət edir ki, «Peyğəmbər (s.a.s.) Həsəni (r.a.) göstərib demişdir: "Bu övladım (nəvəm) seyiddir[156]. Allah təala onun əli ilə müsəlmanlardan olan iki tayfanı islah edəcək"».[157]

Vəfat etdiyi tarix: Həsən (r.a.) hicri tarixi ilə 50-ci ildə zəhərləndirilərək şəhid olmuşdur.[158]

### Həsənin (r.a.) fəzilətinə dair ayə və hədislər:

1) Uca Allah buyurur:

إِن تَتُوبَا إِلَى اللَّهِ فَقَدْ صَغَتْ قُلُوبُكُمَا وَإِن تَظَاهَرَا عَلَيْهِ فَإِنَّ اللَّهَ هُوَ
مَوْلَاهُ وَجِبْرِيلُ وَصَالِحُ الْمُؤْمِنِينَ وَالْمَلَائِكَةُ بَعْدَ ذَٰلِكَ ظَهِيرٌ ﴿٤﴾

---

155 Bu hadisə hicrətin 41-ci ilində baş vermişdir.
156 Bu ləqəb Peyğəmbərin (s.a.s.) nəslindən olan şərəfli insanlara verilir. Bax: «əl-Mucəmu-l-Vasit», 1/461.
157 «Səhihu-l-Buxari», 7/118, 3746-cı hədis.
158 «Təqribu-t-Təhzib», səh.240 (1270-cı tərcümə).

**«Əgər Peyğəmbərə qarşı bir-birinizə kömək etsəniz,** (bilin ki) **Allah onun hamisi, Cəbrail, əməlisaleh möminlər və bunlardan sonra** (bütün) **mələklər də onun köməkçiləridir!»**[159]

İbn Abbas (r.a.) İbn Məsud (r.a.) İbn Ömər (r.a.) və başqaları bu ayədəki əməlisaleh möminlərin Əbu Bəkr (r.a.) Ömər (r.a.) Osman (r.a.) Əli (r.a.) Həsən (r.a.) və başqalarının olduqlarını təfsir etmişlər.[160]

2) Uca Allah buyurur:

وَسَيُجَنَّبُهَا الْأَتْقَى ﴿١٧﴾ الَّذِي يُؤْتِي مَالَهُ يَتَزَكَّى ﴿١٨﴾ وَمَا لِأَحَدٍ عِنْدَهُ
مِنْ نِعْمَةٍ تُجْزَى ﴿١٩﴾ إِلَّا ابْتِغَاءَ وَجْهِ رَبِّهِ الْأَعْلَى ﴿٢٠﴾ وَلَسَوْفَ يَرْضَى ﴿٢١﴾

**«Allahdan qorxub pis əməllərdən çəkinən isə ondan** (atəşdən) **uzaqlaşdırılar. O kimsə ki, malını** (Allah yolunda) **verib** (günahlardan) **təmizlənər. O şəxsin boynunda heç kəsin bir minnəti yoxdur ki, onun əvəzi verilsin. O ancaq ən Uca olan Rəbbinin rizasını qazanmaq üçün belə edər. And olsun ki, o** (öz Rəbbinin cənnətdə ona verəcəyi nemətlərə görə) **razı olacaqdır»**[161]

Əksər təfsir alimlərinin rəyinə görə bu ayələr Əbu Bəkr (r.a.) üçün nazil olub və Həsən (r.a.) də daxil olmaqla bütün möminlərə şamil edilir.[162]

3) Uca Allah buyurur:

وَالَّذِي جَاءَ بِالصِّدْقِ وَصَدَّقَ بِهِ أُولَٰئِكَ هُمُ الْمُتَّقُونَ ﴿٣٣﴾

**«Haqqı** (Quranı) **gətirən və onu təsdiq edənlər əsl müttəqilərdir»**[163]

Onu təsdiq edənlər Əbu Bəkr (r.a.) Ömər (r.a.) Osman (r.a.) Əli (r.a.) Həsən (r.a.) və başqa möminlərdir.[164]

---

159 «ət-Təhrim» surəsi, 4.
160 «Təfsir ibn Kəsir», 4/500.
161 «əl-Leyl» surəsi, 17-21.
162 «Təfsir ibn Kəsir», 4/762.
163 «əz-Zumər» surəsi, 33.

164 Ət-Tabəri, «Camiu-l-bəyan», 3/24.

4) Əbu Səid əl-Xudri (r.a.) rəvayət edir ki, «Peyğəmbər (s.a.s.) demişdir: "Mənim səhabələrimi söyməyin! Həqiqətən, sizdən biriniz Uhud dağı boyda qızıl sədəqə versə belə, onlardan birinin verdiyi bir ovuca (sədəqəyə) hətta yarısına belə çata bilməz."»[165]

5) Bəra bin Azib (r.a.) rəvayət edir ki, «Peyğəmbər (s.a.s.) Həsəni (r.a.) boynunda otuzdurub demişdir: "Allahım, həqiqətən mən onu sevirəm və Sən də onu insanlara sevdir!"»[166]

6) Uqbə ibnu-l-Haris rəvayət edir ki, «Əbu Bəkr (r.a.) Həsəni (r.a.) qucağına götürüb dedi: "Bu, Əlidən çox Peyğəmbərə (s.a.s.) oxşayır". Bunu eşidən Əli gülümsədi».[167]

7) İbn Ömər (r.a.) rəvayət edir ki, Əbu Bəkr (r.a.) demişdir: «Məhəmməd peyğəmbərin (s.a.s.) əhli-beytini (ev əhlini) qorumaqla onları mühafizə edin!»[168]

8) İraq əhli ibn Ömərdən (r.a.) həcc zamanı milçəyin (başqa rəvayətdə: ağcaqanadın) öldürülməsi haqqında soruşduqda o demişdir: «Onlar milçək haqqında soruşurlar, halbuki Peyğəmbərin (s.a.s.) reyhan kimi nəvəsini qətlə yetirmişlər. Həsən və Hüseyn (r.a.) onun reyhan qoxulu nəvələri idi».[169]

9) Peyğəmbər (s.a.s.) demişdir: «Həsən və Hüseyn cənnətdə olan cavanların seyyididir (yüksək mərtəbədədir)».[170]

10) Peyğəmbər (s.a.s.) demişdir: «Həsən məndəndir».[171]

11) İbn Kəsir rəvayət edir ki, «Həsən (r.a.) sübh namazını qıldıqdan sonra gün çıxana qədər Allahı zikr edib, sonra da gedib Peyğəmbərin (s.a.s.) zövcələrinə salam verərdi».[172]

---

165 «Səhihu-l-Buxari», 7/25, 3673-cü hədis.
166 «Səhihu-l-Buxari», 7/119, 3749-cu hədis.
167 «Səhihu-l-Buxari», 7/119, 3750-ci hədis.
168 «Səhihu-l-Buxari», 7/119, 3751-ci hədis.
169 «Səhihu-l-Buxari», 7/119, 3753-cü hədis.
170 «Səhih hədislər silsiləsi», 2/423, 796-cı hədis.
171 «Səhih hədislər silsiləsi», 2/450, 811-ci hədis.
172 «əl-Bidəyə va-n-Nihəyə», 8/40.

## PEYĞƏMBƏR (S.A.S.) ILƏ BU XƏLIFƏLƏR ARASINDA OLAN QOHUMLUQ ƏLAQƏLƏRI:

1. Əbu Bəkr (r.a.) Peyğəmbərin (s.a.s.) qayınatasıdır. O, qızı Aişəni (r.a.) Peyğəmbərə (s.a.s.) ərə vermiş və beləliklə də onunla qohum olmuşdur.

2. Ömər (r.a.) Peyğəmbərin (s.a.s.) qayınatasıdır. O, qızı Həfsanı (r.a.) Peyğəmbərə (s.a.s.) ərə vermiş və beləliklə də onunla qohum olmuşdur.

3. Osman (r.a.) Peyğəmbərin (s.a.s.) kürəkənidir. O, Peyğəmbərin (s.a.s.) qızları Ruqiyyə və Ummu Gülsüm (r.a.) ilə evlənmiş və beləliklə də onunla qohum olmuşdur.

4. Əli (r.a.) Peyğəmbərin (s.a.s.) əmisi oğlu[173], həm də kürəkənidir. O, Peyğəmbərin (s.a.s.) qızı Fatimə (r.a.) ilə evlənmişdir.

5. Həsən (r.a.) Peyğəmbərin (s.a.s.) nəvəsidir.

[173] Əli (r.a.) Əbu Talibin oğludur. Əbu Talib isə Peyğəmbərin (s.a.s.) atası Abdullahın qardaşıdır. Hər ikisi Əbdülmüttəlibin oğlanlarıdır.

**Dahi şairlərin**
**ŞERLƏRINDƏN**

Mürsəl nəbidən sonradır mötəbər,
Əbu Bəkrə tay olmamış bir nəfər.
Ömər dini-islama verdi rəvac,
Müsəlmanlığın başına qoydu tac.
Çatıb vəsf üçün Osmanın növbəti,
Həmi izzəti vardır, həmi isməti.
Xəlifə olub növbət ilə Əli,
Məhəmməd onu vəsf edibdir, bəli!
Demiş ki: «Əli olmasaydı əgər,
Qazanmazdı islam bunca zəfər».

**Firdovsi**
*«Şahnamə», səh.19*

Bu evə yeddi səqf yaratdın yenə,
Tapşırdın onu da dörd xəlifənə.
Siddiq[174] sədaqətə olmuşdur rəhbər,
Faruqi[175] fərq-dən uzaq bildilər.
O, Allahdan qorxan həyalı qoca[176],
Tanrının şiriylə[177] həmdərs olunca.
Dördü də bir yolun sarbanı oldu,
Dördü də bir ləkin reyhanı oldu.
Bu dörd xəlifəylə güldü məmləkət,
Hər ev dörd divarla qurular, əlbət.
Bu dördlük birləşdi qoca dünyada,
Bu dördbucaq evi gətirdi dada.

**Nizami Gəncəvi,**
«Leyli və Məcnun», səh.35

---

[174] Əbu Bəkr (r.a.) nəzərdə tutulur.
[175] Ömər ibnu-l-Xəttab (r.a.) nəzərdə tutulur.
[176] Osman bin Əffana (r.a.) işarədir.
[177] Əli bin Əbu Talibə (r.a.) işarədir.

Gözəldir, səpərək can gövhərini,
Tərifə başlasam dörd yavərini.
Dörd gövhər satan var, dörd gövhər alan,
Artıq-əskiyinə qarışmaz satan.
Əlinin eşqinidə sabitqədəməm,
Ömər sevgisindən uzaq deyiləm.
Hər ikisi nur ilə nurlanır dimaq:
Əbu Bəkr bir şamdır, Osman bir çıraq.
Bu dərviş sifətli dörd böyük soltan,
Dünyaya olmuş dörd təkbir oxuyan.

**Nizami Gəncəvi,**
*«İskəndərnamə», səh.28*

«Quran» xəzinədir, şair, gərək sən,
Hər sözü alasan bu xəzinədən.
«Quran»a inandı Məhəmməd, Osman,
Özlərini ona etdilər qurban.
«Quran»ı bəzədi Osmanın qanı[178],
Din yolunda şəhid etdi o canı.
Şəriətdən kənar elm yoxdur, bil,
Varsa qara xaldır, heç bilik deyil.
Qara xalı üzə heç çıxarma sən,
Gizlət ağ xal kimi iman əhlindən.

**Xəqani Şirvani**
*«seçilmiş əsərlər» səh. 52*

[178] Osman (r.a.) öz evində xaricilər tərəfindən öldürülərkən qanı oxuduğu (öz əli ilə yazmış) «Quran»ın üzərinə tökülmüşdür.

## SON SÖZ

Peyğəmbərlər[179] və elçilər[180] bir-biri ilə qardaş olduğu kimi, səhabələr, xüsusən də xəlifələr bir-biri ilə qardaş idilər. Baxmayaraq ki, onlardan sonra çox fitnələr olmuş, lakin onlar öz zamanında bir-birinə qarşı çox mehriban, rəhmli olmuşlar. Uca Allah peyğəmbərlərin, elçilərin birini digərindən üstün etdi:

وَلَقَدْ فَضَّلْنَا بَعْضَ النَّبِيِّينَ عَلَى بَعْضٍ

**«Biz peyğəmbərlərin bə‘zisini digərlərindən üstün etdik»**[181]

تِلْكَ الرُّسُلُ فَضَّلْنَا بَعْضَهُمْ عَلَى بَعْضٍ

**«Biz elçilərin bə‘zisini digərindən üstün etdik»**[182]

Allah eləcə də səhabələrdən bəzilərini digərlərindən üstün etdi. Xüsusən də xəlifələr digərlərindən seçilirdi. İrbad bin Səriyə (r.a.) rəvayət edir ki, Peyğəmbər (s.a.s.) vəsiyyət edib demişdir: «Sizə Allahdan qorxmağı və əmirə (xəlifəyə) qulaq asıb, ona itaət etməyi tövsiyə edirəm. Həqiqətən, məndən sonra çox ixtilaflar görəcəksiniz. O zaman mənim və xəlifələrimin sünnəsinə[183] riayət edin».[184] Onlar Peyğəmbərin (s.a.s.) əmri ilə Mədinə şəhərinə hicrət etmiş və beləliklə də bir-birinə qardaş olmuşlar. Peyğəmbər (s.a.s.) demişdir: «Mühacirlər dünya və axirətdə bir-birinin vəlisidir[185]».[186]

Bu müsəlman ümmətinin hər bir fərdinə səhabələrə münasibətdə məhəbbət, itaət, tabeçilik nümayiş etdirmək, onlardan nümunə götürmək, onlarla fəxr etmək, haqlarını müdafiə etmək və onlar üçün Allahın razılığını diləmək

---

179 Nəbilər.
180 Rəsullar.
181 «əl-İsra» surəsi, 55.
182 «əl-Bəqərə» surəsi, 253.
183 Sünnənin lüğəti mənası «yol» deməkdir.
184 Əbu Davud. «Sünən», 12/234, 4594-cü hədis.
185 Burada: qardaşı, sevimlisi.
186 «Səhih hədislər silsiləsi», 3/30, 1036-cı hədis.

vacibdir. Bu onların müsəlmanlar üzərindəki haqlarıdır. Çünki onlar Peyğəmbərdən (s.a.s.) sonra bu ümmətin yolunu işıqlandıran çıraqlardır.

Məhz onlar barəsində Uca Allah buyurur:

وَالسَّابِقُونَ الْأَوَّلُونَ مِنَ الْمُهَاجِرِينَ وَالْأَنْصَارِ وَالَّذِينَ اتَّبَعُوهُمْ بِإِحْسَانٍ
رَضِيَ اللَّهُ عَنْهُمْ وَرَضُوا عَنْهُ وَأَعَدَّ لَهُمْ جَنَّاتٍ تَجْرِي تَحْتَهَا الْأَنْهَارُ
خَالِدِينَ فِيهَا أَبَدًا ذَٰلِكَ الْفَوْزُ الْعَظِيمُ ﴿١٠٠﴾

**«**(İslamı) **ilk əvvəl qəbul edib** (başqalarını bu işdə) **qabaqlayan mühacirlərə və ənsarlara, həmçinin, yaxşı işlər görməkdə onların ardınca gedənlərə gəldikdə, Allah onlardan, onlar da Allahdan razıdılar. Allah onlar üçün əbədi qalacaqları,** (ağacları) **altından çaylar axan cənnətlər hazırlamışdır. Bu, ən böyük qurtuluş və uğurdur!»**[187]

Bu qısa oçerkdə biz Peyğəmbərin (s.ə.s) ən yaxın səhabələrindən olan, cənnətlə müjdələnən, nübuvvət məktəbində tərbiyə alan, islam həyatını onun ilk çağlarından yaşayan, otuz il islam ümmətinə rəhbərlik edən beş raşidi xəlifə barəsində danışdıq. Onların hamısı Peyğəmbərin (s.a.s.) xəttini davam etdirmiş, onun sünnəsini rəhbər tutmuş və yolu ilə getmişlər.

Biz həmçinin öyrəndik ki, Əbu Bəkrdən (r.a.) başlayaraq Həsənə (r.a.) kimi onlardan heç biri hakimiyyətə öz istəyi ilə gəlməmiş, bu məsuliyyətli işi onlara müsəlmanların şurası tapşırmışdır.

Allah onlardan razı olsun və yaxşı işlərdə bizi onların davamçısı etsin! Amin!

---

[187] «ət-Tövbə» surəsi, 100.

## BƏZİ SÖZLƏRİN İZAHI:

1. **Fil ili:** 570-ci (vəya 571) ildə kitab əhlindən olan Əbrəhə adlı birisi qoşun toplayıb müqəddəs Kəbəni dağıtmaq üçün Məkkəyə yola düşür. Kəbə yaxınlaşdığı zaman UCA-ALLAH ona böyük bir bəla göndərir və qoşunu ilə bərabər onu məhv edir. Bu münasibətlə də bu il Fil ili adlandırılır
2. **Səhabə:** Peyğəmbər (s.a.s.) ilə sağlığında görüşüb ona iman gətirmiş və mömin olaraq vəfat etmiş şəxsə səhabə deyilir.
3. **Fəcr:** Sübh namazı.
4. **Ənsar:** Peyğəmbərə (s.a.s.) yardım etmiş Mədinə şəhərinin sakinləri (müsəlmanlar).
5. **Fəzilətli:** Hörməti, savabı və s. üstün cəhətləri çox olan şəxs.
6. **Qövmün:** Tayfanın
7. **Müşrik:** İbadətdə Allaha şərik qoşan.
8. **Münafiq:** İki üzlü, (daxildən bir cür olub, zahirdən başqa cür olan)
9. **Nübuvvət:** Peyğəmbərlik.
10. **Raşidi:** Ədalətli, düz yolda olan şəxslər.
11. **Beyət:** Hər hansı bir şəxsin əlini sıxaraq onun xəlifə olmasını və ya hər hansı bir əhdin yerinə yetirilməsini təsdiq etmək.

## Kitabçada istifadə olunan ədəbiyyat


**1.** Qurani Kərim
**2.** Qurani Kərimin tərcüməsi (Z.Bünyadov, V.Məmmədəliyev)
**3.** Səhihu-l-Buxari
**4.** Səhih Muslim
**5.** Malikin «Muvatta» əsəri
**6.** Əhməd ibn Hənbəlin «Müsnəd» əsəri
**7.** Əbu Davudun «Sünnə» əsəri
**8.** ən-Nəsainin «Sünnə» əsəri
**9.** ət-Tirmizini «Sünnə» əsəri
**10.** ibn Macənin «Sünnə» əsəri
**11.** Abdurrəzzaqın «əl-Musənnəf» əsəri
**12.** əl-Hakimin «Müstədrək» əsəri
**13.** ibn həcərin «Təqribu-t-Təhzib» əsəri
**14.** əl-Albaninin «Səhih hədislər silsiləsi»
**15.** Təbarinin «Tarixu-l-Uməm vəl-Muluk» əsəri
**16.** İbn kəsirin «əl-Bidayətu vən-Nihayə» əsəri
**17.** İbn Əsirin tarixi
**18.** Zəhəbinin «Siyəru Ələmun-Nubələ» əsəri
**19.** Əkrəmin «Siratu-n-Nəbi» əsəri
**20.** Tabarinin təfsiri
**21.** İbn Kəsirin təfsiri
**22.** Qurtubinin təfsiri
**23.** Şövkaninin təfsiri
**24.** Bəğavinin təfsiri
**25.** Razinin təfsiri
**26.** Sə'dinin təfsiri
**27.** Şinqitinin təfsiri
**28.** Əlusinin təfsiri
**29.** Hikmət Bəşirin təfsiri
**30.** «Nəhcül-Bəlağa» Əli bin Əbu Talib (r.a.)
**31.** «Nəhcül-Bəlağa» nın Azərbaycan dilində tərcüməsi.
**32.** Meysəmin «Nəhcül-Bəlağa» ya verdiyi şərhi
**33.** Məclisinin «Biharul-Ənvar» əsəri
**34.** Ərbilinin «Kəşful-Ğummə fi mərifəti-l-əimmə» əsəri
**35.** Əli ibn əl-Hüseynin (əl-Mürtəza) «əş-Şafi» əsəri
**36.** Kuleyninin «ər-Rovzə minə-l-Kafi» əsəri
**37.** Kuleyninin «əl-Kafi fil-furu» əsəri

**38.** Ət-Tabrisinin «əl-İhdicac» əsəri
**39.** Əbulqasim Firdovsinin «Şahnamə» əsəri-Bakı 1987-ci il
**40.** Nizami Gəncəvinin «Leyli və Məcnun» əsəri-Bakı 1982-ci il
**41.** Nizami Gəncəvinin «İskəndərnamə» əsəri-Bakı 1982-ci il
**42.**Xəqani Şirvaninin «Seçilmiş əsərləri»- Bakı 1987-ci il

## MÜNDƏRİCAT

**Müqəddimə** .......................................................................... **2**
**I xəlifə:** Əbu Bəkr əs-Siddiq (r.a.) .......................................................... 5
Əbu Bəkrin fəzilətinə dair ayə və hədislər .............................................. 6
**II xəlifə:** Ömər ibnu-l-Xəttab (r.a.) ...................................................... 13
Ömərin fəzilətinə dair ayə və hədislər .................................................. 14
**III xəlifə:** Osman bin Əffan (r.a.) ...................................................... 23
Osmanın fəzilətinə dair ayə və hədislər ............................................... 24
**IV xəlifə:** Əli bin Əbu Talib (r.a.) ..................................................... 30
Əlinin fəzilətinə dair ayə və hədislər .................................................. 32
**V xəlifə:** həsən bin Əli (r.a.) .............................................................. 37
Həsənin fəzilətinə dair ayə və hədislər ............................................... 37
Peyğəmbərin (s.a.s.) bu xəlifələrlə olan qohumluq əlaqələri ................ 40
Dahi şairlərin şe'rlərindən ..................................................................... 41
Son söz ................................................................................................. 43
Bəzi sözlərin izahı ................................................................................ 45
Kitabçada istifadə olunan ədəbiyyat .................................................. 46

www.azerislam.com